Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Mehdi Hüseyn – ədəbi döyüşlər cəngavəri

**Mehdi Hüseynin 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Mehdi Hüseyn – ədəbi döyüşlər cəngavəri** : Uşaq kitabxanalarında Mehdi Hüseyn yaradıcılığını gənc kitabxanaçılara, oxuculara çatdırılması məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS - nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt. ed. R.Məmmədli ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. - 52s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

Müasir Azərbaycan ədəbiyyatının beşiyi başında duranlardan, onun yetişməsində, formalaşmasında, yaradıcılıq prinsiplərinin işlənib hazırlanmasında, ideya saflığı və bədii kamillik uğrunda mübarizələrində, bugünkü yüksək zirvələrə çatmasında böyük rol oynamış görkəmli yazıçı, nəzəriyyəçi və tənqidçilərdən biri Mehdi Hüseyn geniş erudisiyaya, ensiklopedik biliyə, güclü məntiqə, dərin müşahidə qabiliyyətinə malik sevilən yazıçıdır. O, bütün varlığı ilə həyat hadisələrinə müdaxilə edən, böyük fikir, arzu və amallar uğrunda mübarizə aparan ehtiraslı, mürəkkəb səciyyəli, yenilməz insan surəti yaratmış mahir sənətkar idi. Yazıçının çoxillik ədəbi yaradıcılığı xalqının tarixi, taleyi və xoş gələcəyi ilə bağlı olmuşdur. Onda Vətən eşqi, vətənpərvərlik duyğuları daha güclü, daha ibrətamizdir. Heç şübhəsiz, kamil nəzəri biliyi, yüksək ziyalılığı ilə sayılan və seçilən Mehdi Hüseyn həmişə ədəbi mübarizələrin mərkəzində dayanmış, məfkurə saflığı uğrunda yalnız nasir kimi deyil, həm də mübariz bir nəzəriyyəçi kimi vuruşan geniş əhatəli sənətkardır. Yazıçının nasir, dramaturq və tədqiqatçı kimi fəaliyyəti, ədəbiyyatımızın problemləri ilə bağlı mühakimələr yürütməsi həmişə böyük marağa səbəb olmuşdur. Mehdi Hüseyn yaradıcılığının son anına qədər müsbət amal və ideya uğrunda vuruşan, ən çətin şəraitdə, gərgin anlarda belə sarsılmayan mərdlik və mətanət rəmzi kimi iradəli, əqidəli insanları əsərlərinə qəhrəman seçmişdir. Onun qəhrəmanları insanların səadəti və xoş gələcəyi uğrunda özlərini məşələ çevirirlər. Bu baxımdan yazıçının “Alov” pyesi və “Yeraltı çaylar dənizə axır” adlı son romanı daha maraqlıdır. “Abşeron”, “Qara daşlar”, “Alov”, “Nizami”, “Səhər”, “Cavanşir”, “Yeraltı çaylar dənizə axır” və başqa əsərləri ədəbiyyatımızın qızıl fonduna daxil olmuşdur. Yazıçının yaradıcılığını oxuculara daha yaxından tanıtmaq məqsədilə elmi-metodika şöbəsi olaraq bu vəsaiti işləməyi özümüzə borc bildik.

## Bölmə I. Həyat və yaradıcılığı

*Azərbaycan ədəbiyyatı böyük bir xalqa arxalanır. Biz elə yüksək, elə zərif və elə dərin əsərlər yaratmalıyıq ki, xalq da bu ədəbiyyata arxalandığı zaman, bu imtahandan müvəffəqiyyətlə çıxa bilsin. Onu yaradanlar özləri bu dövrün insanlarından öyrənməklə bərabər, onların fikrinə və zövqünə istiqamət verə bilsinlər.*

***Mehdi Hüseyn***

Mehdi Əli oğlu Hüseynov (Mehdi Hüseyn) 1909-cu ildə Qazax rayonunun II Şıxlı kəndində anadan olmuşdur. 1929-cu ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1938-ci ildə Moskvada Dövlət Kinematoqrafiya İnstitutunun nəzdində akademiya tipli kinossenariçilər kursunu bitirmişdir. Mehdi Hüseyn əlli altı illik ömrünün qırx ilini XX əsr Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişafına həsr etmişdir. O, müxtəlif illərdə Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, Sovet Yazıçılar İttifaqının katibi kimi məsul vəzifələrdə çalışmışdır. Xalq yazıçısı Mehdi Hüseyn keçmiş SSRİ və Azərbaycan Ali Sovetlərinə deputat seçilmişdir. Böyük yazıçı, dövlət adamı, ictimai-siyasi xadim olan Mehdi Hüseyn xalqımızın çoxəsrlik ədəbiyyatını və zəngin mədəniyyətini dünyanın bir sıra ölkələrində layiqincə təmsil etmişdir.

Mehdi Hüseyn yaradıcılığa müxbir yazıları ilə başlamışdır. Bir-birinin ardınca müxtəlif mövzularda bir sıra məqalələr yazmış, çox keçmədən klassik irsə münasibət, yeni insan təsviri, yeni mövzular aləmi ilə bağlı geniş mübarizələrdə çıxış etmişdir. Bu məqalələrdə uğurlar qazanmaqla yanaşı, müəllif tərəfindən yalnış mühakimələr də irəli sürülmüşdür. Mehdi Hüseyni fərdi xüsusiyyətlərə malik nasir kimi tanıdan ilk əsəri "Tərlan" romanı olmuşdur.

Mehdi Hüseyn otuzuncu illərdən başlayaraq bir nasir kimi bədii əsərlərlə çıxış etmişdir. O, ilk olaraq 1930-cu ildə "Xavər"

və "Bahar suları" adlı hekayələrini oxuculara təqdim etmişdir. Mehdi Hüseyn 1931-1937-ci illərdə daha iri həcmli əsərlər yazmağa başlamış, bu sıradan üç hissədən ibarət olan və Azərbaycanda baş vermiş vətəndaş müharibəsinə həsr edilmiş, "Daşqın" romanını çap etdirmiş, kollektivləşmə dövründən bəhs edən "Tərlan" romanını yazmışdır.

İxtisasca tarixçi olan Mehdi Hüseyn bədii yaradıcılığında tarixi mövzulara zaman-zaman müraciət etmiş, bir sıra qiymətli əsərlər yazmışdır. Bu baxımdan yazıçının 1940-1941-ci illərdə Azərbaycan şairi Nizami Gəncəvinin həyatından bəhs edən "Nizami" adlı dramı böyük marağa səbəb olmuşdur. Başqa əsərlərində olduğu kimi, bu dramda da tarixə müasirlik nöqteyi-nəzərindən yanaşmışdır. Əsərdə Nizaminin Ana Vətənə, onun füsunkar təbiətinə vurğunluğu qələmə alınmışdır.

Mehdi Hüseyn "Nizami" dramından sonra 1943-cü ildə "Odlu qılınc" hekayəsini yazmış, sonra bu mövzunu inkişaf etdirərək Azərbaycan tarixinin mübarizəli səhifələrini özündə əks etdirən "Cavanşir" dramını qələmə almışdır. Yazıçının qarşıya qoyduğu məqsəd Cavanşirin timsalında xalqımızın qəlbində vətənpərvərlik duyğularını alovlandırmaq, onu uğurlara, qələbələrə səsləmək olmuşdur. Mehdi Hüseynin heç şübhəsiz, şah əsərlərindən biri 1947-1948-ci illərdə yazdığı "Abşeron" romanıdır. Qırxdan çox xarici ölkənin dilinə tərcümə edilmiş bu əsər XIX-XX əsrlərdə Azərbaycan neft sənayesinin inkişafından bəhs edir. "Abşeron" romanı həm bədii, həm siyasi, həm də mənəviyyatca, məzmun və mahiyyətcə böyük uğurlar qazanan kamil, bitkin bir əsərdir və ona görə də minlərlə oxucuların hüsn rəğbətini qazanmışdır. Mehdi Hüseyn "Abşeron" romanından sonra neftçilərin həyatından bəhs edən "Qara daşlar" romanını oxuculara təqdim etmişdir. Bu roman gərgin konfliktlər və zəngin xarakterlər romanıdır. Romanda insan təbiətinin bir-birinə zidd olan iki qütbü qarşı-qarşıya dayanmışdır. Mehdi Hüseyn özünə xas olan ustalıqla, təbiətin kortəbii qüvvələri ilə insanın çarpışmasını, gərgin mübarizə aparmısını, romanın

qəhrəmanlarının bir tərəfdən təbiətlə, digər tərəfdən ictimai eybəcərliklərlə barışmaz mövqedə durmasını əks etdirən əsərdə insanların qarşılıqlı əlaqəsi, məhəbbət səhnələri, ailə və məişət məsələləri, onların ictimai həyatlarının tərkib hissəsi kimi tərənnüm etmişdir.

Mehdi Hüseyn yaradıcılığının son anına qədər müsbət amal və ideya uğrunda vuruşan, ən çətin şəraitdə, gərgin anlarda belə sarsılmayan mərdlik və mətanət rəmzi kimi iradəli, əqidəli insanları əsərlərinə qəhrəman seçmişdir. Onun qəhrəmanları insanların səadəti və xoş gələcəyi uğrunda özlərini məşələ çevirirlər. Bu baxımdan yazıçının "Alov" pyesi və son romanı olan "Yeraltı çaylar dənizə axır" buna misal ola bilər. Onun "Abşeron", "Qara daşlar", "Alov", Nizami", "Səhər", "Cavanşir", "Yeraltı çaylar dənizə axır" və başqa əsərləri ədəbiyyatımızın qızıl fonduna daxil olmuşdur.

Mehdi Hüseynin çoxcəhətli yaradıcılığında tənqidi fikir Azərbaycan ədəbiyyatının inkişafına həsr edilmişdir. Zaman-zaman irəli sürülən və yaradıcılıq münaqişələri ilə bağlı olan bu fikirlər həm ədibin yaradıclığında, həm də Azərbaycan ədəbiyyatında mühüm əhəmiyyət kəsb etmişdir. Yazıçının tənqidi də bədii yaradıcılığı kimi həm əhatə etdiyi mövzu, həm də janrları baxımından rəngarəngdir, çoxçalarlıdır. Onun tənqidi əsərləri içərisində ədəbiyyat tarixinə müasir ədəbi problemlərə, teatr tənqidinə, aktyor sənətinə dair mülahizələrə, dünya ədəbiyyatı haqqında çox qiymətli fikirlərə rast gəlmək olar.

Mehdi Hüseyn Azərbaycan ədəbiyyatı və ictimai fikir tarixində əvəzsiz xidmətlər göstərərək, ümumxalq məhəbbəti qazanmışdır. Yazıçı 1965-ci il, martın 10-da, yaradıcılığının çiçəkləndiyi bir dövrdə qəflətən vəfat etmişdir.

## Bölmə II. Yubiley tədbirlərinin keçirilməsi

XX əsr Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri, yazıçı, dramaturq, ədəbiyyat nəzəriyyəçisi Mehdi Hüseyndir. Bu il dahi ədibin 110 illik yubileyi qeyd olunur. Bu baxımdan yazıçının yubileyi ilə əlaqədar bütün mədəni-maarif müəssisələrində, kitabxanalarda kütləvi tədbirlərin keçirilməsi məqsədəuyğundur. Yazıçının yaradıcılığını təbliğ etmək məqsədilə kütləvi tədbirlər çərçivəsində sərgi, viktorina, icmal, sual-cavab gecəsi və ən əsası ədəbi-bədii gecənin keçirilməsi mühüm şərtdir. Yazıçının irsinin təbliğinin əsas vasitələrindən biri **sərgidir**. Sərgidə yazıçının portreti, ayrı-ayrı əsərləri, tənqidi məqalələri, görkəmli elm xadimlərinin ədib haqqında söylədiklərindən sitatlar əks etdirilə bilər. Belə ki, sərgini müxtəlif başlıqlar altında təşkil etmək olar. Məs... "Ədəbi tənqidimizin cəngavəri", "Mehdi Hüseyn – 110", "İnam və əqidə mücahidi", "Ədəbiyyatımızın səməndər quşu", "Mehdi Hüseyn və gənclik", "Sənətkar və ictimai xadim", "Qüdrətli sənətkar", "Mehdi Hüseyn meyarı", "Azadlığı və azad sözü sevən Mehdi Hüseyn", "Zəhmətkeş sənətkar", "Prinsipial yazıçı", "Döyüşən ədib", "Mehdi Hüseyn müasirlərinin gözü ilə", "Unudulmaz sənətkar", "Döyüşən ədib", "Cəsarət simvolu – Mehdi Hüseyn", "Əbədiyyətə qovuşan sənətkar" və s. Sərginin nümunəsini təqdim edirik:

1. **Başlıq:** "Ədəbiyyatımızın səməndər quşu";
2. Portreti;
3. Mehdi Hüseynin söylədiyi hikmətli kəlamlar;
4. Görkəmli elm və incəsənət xadimləri Mehdi Hüseyn haqqında.
5. **Yarımbaşlıq.** Əsərləri.(Romanlar).
6. "Daşqın";
7. "Tərlan";
8. "Abşeron";
9. "Yeraltı çaylar dənizə axır".
10. **Pyeslər.**

11. “Şeyx Şamil”;
12. “Nizami”;
13. “Cavanşir”;
14. “Alov”.
15. **Ədəbi-tənqidi məqalələri.**
16. “Sabir-novator”;
17. “Böyük dramaturq” (M.F. Axundov);
18. “Dahi sənətkar” (Mirzə Cəlil).
19. **Mehdi Hüseyn tədqiqatçı kimi.**
20. **“**Səadət və məhəbbət müğənnisi”;
21. “Ədəbi qeydlər”;
22. “Ədəbi düşüncələr”;
23. “Ədəbiyyat və sənət”;
24. “Yazıçı və tarix”;
25. “Zəngin xəzinələr”.
26. Mehdi Hüseynin üç hissəli seçilmiş əsərləri









## Mehdi Hüseynin söylədiyi hikmətli kəlamlar

1.“Müasirlik bizim idealımızdır, ədəbiyyatımızın şah damarıdır”.

2. “İnsan olmayan yerdə bədii əsər də yoxdur”.

3. “Xalq fantaziyasının zənginləşdirib tamamladığı nağıl və dastanlar öz qüvvətini xalqın məğlubedilməz mənəvi qüvvətindən, mərdlik və igidliyindən alır”.

4.“Yazıçı hər şeydən əvvəl öz xalqının oğludur”.

5. “O ədəbiyyat böyükdür ki, ruhən əzəmətlidir, böyük iddialar və bəşəri hisslərlə yaşayır”.

6.“Nə zaman həqiqi şeir yaranır? O zaman ki, şair hər şeydən yox, yalnız onu coşduran, düşündürən, sevindirən və qəzəbləndirən şeylərdən yazır”.

7. “Sənət həqiqətdən qida alır. Əgər mən bir insanın inkişafını göstərərkən, onun psixoloji təsvirində yalnış xətlər çəkirəmsə, deməli, mən qarşımda dayanmış insanı düz görməmişəm”.

8. “Tarixçi psixoloq deyildir. Lakin sənətkar psixoloq olmalıdır. Bunsuz tarix elmi yaransa da, tarixi bədii əsər yarana bilməz”.

9. “Əgər  şair və ədib bu günün fəlsəfəsi ideyaları ilə yaşamırsa, əgər onu müasir insanları maraqlandıran məsələlər maraqlandırmırsa, aydın məsələdir ki, onun yaratdığı əsərlərin təsir gücü heç vaxt istənilən səviyyəyə çatmayacaqdır”.

## Görkəmli şəxsiyyətlər Mehdi Hüseyn haqqında

Yeni dövr Azərbaycan ədəbiyyatının inkişafında istedadlı nasir, dramaturq və tənqidçi Mehdi Hüseynin özünəməxsus yeri vardır. O, tarixi və müasir mövzulu bədii əsərlərin bir çox dəyərli nümunələrini meydana gətirməklə yanaşı, peşəkar ədəbiyyatşünas kimi sənətkarlıq və yaradıcılığın nəzəri məsələlərinə dair aktual mülahizələri ilə ədəbi prosesə istiqamət vermişdir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Mehdi Hüseyn bütün şüurlu həyatını Azərbaycan xalqının mədəniyyətinə həsr edən gözəl bir ədibdir. O, ədəbiyyatımızın yorulmaz əsgəri, milli, coğrafi və professional məhdudluqdan uzaq bir ədib idi. Mehdi Hüseynin zəngin yaradıcılıq yolu, dərin məzmunlu, yüksək məfkurəli və mənalı əsərləri gənc nəslimiz üçün ən yaxşı tərbiyə vasitəsidir.

**Mir Cəlal Paşayev,**
*filologiya elmləri doktoru*

Mehdi, ədəbiyyatın əlisilahlı keşikçisidir. O, istər ideoloji, istərsə də sənətkarlıq cəhətdən ədəbiyyatımızda özünü göstərən bütün büdrəmələrə dərhal münasibətini bildirər və bu yalnışlığın islahına çalışardı.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Mehdi Hüseynin qayğısı çox sərt və amansız qayğı idi. O, heç vaxt inamının əksinə getməz, ürəyindən olmayan əsəri tərifləməzdi. Əsərə qiymət verərkən şəxsi hiss və münasibətlərini unudardı. Çünki ədəbi amal və vicdan onun üçün əsas idi. Mehdi Hüseyn dərin nəzəri biliyə malik, həmişə

ədəbi mübarizələrin mərkəzində dayanan, ədəbiyyatın məfkurə saflığı uğrunda vuruşan bir sənətkardır.

**İsmayıl Şıxlı,**
*Xalq yazıçısı*

Mehdi Hüseyn xalqın sevgisini, etibarını qazanmış sənətkarlarımızdandır. Bu etibarın dayaq nöqtəsi yazıçı saflığı, insan amalı idi. Bəli, Mehdi Hüseyn özündə əsl yazıçı xarakteri tərbiyyələndirmiş bir insan idi. Onun əsərləri amalının, müasirliyinin bariz nümunəsidir.

**İsa Muğanna,**
*Xalq yazıçısı*

Mehdi Hüseynin "Abşeron" romanı bədii xüsusiyyətləri, yazılışı, sənətkarlığı etibarilə də müasirdir. O, yığcamlığı, mənalı və şirin lakonikliyi, yerində və dolğun dialoqları etibarilə bizə bəzən Heminqueyin romanlarını xatırladır.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

XX əsr Azərbaycan ədəbiyyatında qüvvətli nasir, dramaturq, prinsipial tənqidçi Mehdi Hüseynin tənqidçi üslubunda ən çox maraq doğuran, həm ümumən ədəbi prosesi, həm ayrı-ayrı yazıçıların yaradıcılığını, həm də bu və ya digər əsəri daha dərindən anlamağa, daha obyektiv dəyərləndirməyə kömək edən texnoloji üsullardan biri tənqidin tənqididir.

**Nizami Cəfərov,**
*filologiya elmləri doktoru, professor*

Mehdi Hüseyn geniş bilik dairəsinə sahib olan hərtərəfli inkişaf etmiş, demək olar ki, ensiklopedist bir yazıçı idi.

**Mehdixan Vəkilov,**
*tarixçi alim, yazıçı*

Mehdi Hüseyn həm həyatda, həm də yaradıcılığında çox prinsipial adam idi. Mehdi Hüseyndəki prinsipiallıq saxta inadkarlıqdan tamamilə uzaq bir xüsusiyyət idi. Həm də bu xüsusiyyət təkcə onun öz xarakterində deyil, əsərlərində, qəhrəmanlarında da var.

**Səid Rüstəmov,**
*bəstəkar*

Mehdi Hüseyn bəşəri fikirlər carçısı idi, xalqının amalını göylərə ucaltmaq üçün çalışırdı.

**Zəkiyyə Qiyasbəyli,**
*ədəbiyyatşünas*

Mehdi Hüseynin ədəbi-tənqidi məqalələrinin əsasında yaş göstəricisi, sənətkar nüfuzu deyil, müraciət edilən əsərin ədəbi prosesdə mövqeyi, rolu, ədəbi hərəkata mənfi və ya müsbət təsiri kimi amillər durur.

**Yəhya Seyidov,**
*tədqiqatçı*

Mehdi Hüseynin romanları həqiqi bədii istedadın və roman təfəkkürünün məhsuludur. Görkəmli yazıçının əsərlərində zəngin məna potensialı var. Bu cəhət onun əsərlərinin bütün zamanlarında oxunacağına zəmanət verir.

**Təyyar Salamoğlu,**
*filologiya elmləri doktoru*

Mehdi Hüseynə görə Azərbaycan ədəbiyyatının, incəsənətinin ən gözəl məziyyətlərindən biri onun həyatla, cəmiyyətlə bağlı olmasıdır. O, tələb edirdi ki, sənətkar həmişə zamanın nəbzini tutmalı, bədii söz kimi kəsərli silahdan sərrast istifadə etməyi bacarmalıdır.

**Tahir Musayev,**
*filologiya elmləri namizədi*

Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişafında, yeni mövzularla zənginləşməsində, eləcə də ədəbiyyatşünaslığın araşdırılmasında, ədəbi tənqidin yeni zirvələr fəth etməsində Xalq yazıçısı Mehdi Hüseynin özünəməxsus yeri vardır.

**Flora Xəlilzadə,**
*Əməkdar jurnalist*

Mehdi Hüseyn təkcə Qafqazla əlaqədar problemləri həll etməyə çalışan yazıçı deyil, özünün bütün biliyini və yaradıcılığını bir çox xalqların ədəbiyyatı ilə bağlı mübahisələrdən ayırmayan bir sənətkardır.

**Lui Araqon,**
*Fransa şairi*

Mehdi Hüseyn geniş biliyə malik insan, həssas tənqidçi, dərin tədqiqatçı idi.

**Tofiq Bayram,**
*ədəbiyyatşünas*

Mehdi Hüseynin istedadı ümumxalq məhəbbəti qazanmışdır. Bu məhəbbət əziz Mehdi üçün ən gözəl abidədir.

Mehdi Hüseynin yaradıcılığını oxucular arasında təbliğ etməyin əsas vasitələrindən biri də **sual-cavab gecəsidir**. Belə ki, sual-cavab gecəsini ümumi olaraq ədibin həyat və yaradıcılığı ilə bağlı suallar ətrafında təşkil etmək olar. Bildiyimiz kimi Mehdi Hüseynin qəhrəmanları əsasən gənclərdir. Buna görə də tədbiri (*sual-cavab gecəsini*) "Mehdi Hüseyn və gənclik" adı ilə adlandırmaq məqsədəuyğun olar. Sual-cavab gecəsində veriləcək sualları təqdim edirik:

1. Mehdi Hüseyn nə zaman və harada anadan olmuşdur?

Mehdi Əli oğlu Hüseynov 1909-cu ildə Qazax rayonunun Şıxlı kəndində müəllim ailəsində anadan olmuşdur.

2. Mehdi Hüseynin tarixi mövzuda qələmə aldığı pyeslərinin adını çəkin.

“Şeyx Şamil”, “Nizami”, “Cavanşir”, “İntizar” və s.
3. Mehdi Hüseynin Azərbaycan ədəbiyyatındakı mövqeyi?
O, qüvvətli nasir, dramaturq, prinsipial tənqidçi və ictimai xadim kimi tanınmışdır.
4. Yazıçının ilk romanının adını və yazdığı tarixi cavablandırın.
O, ilk iri həcmli romanı olan “Daşqın”ı 1933-cü ildə yazmışdır.
5. Ədibin gənclərin həyatından bəhs edən əsərləri hansılardır?
Onun gənclərin həyatından bəhs edən əsərləri “Qara daşlar”, “Abşeron”, “Yeraltı çaylar dənizə axır” və s... dir.
6.Mehdi Hüseyn əsərlərində yaratdığı gənc qəhrəman obrazlarını necə qiymətləndirir?
Bu əsərlərdə müəllifin sevə-sevə qələmə aldığı Tahir, Cəmil, Mehman, Səməndər, Səməd, Lətifə, Dadaşlı, Səmirə Aydın, Müdhət, Zəfər və başqaları Azərbaycan gənclərinin yaxşı sifətlərini özündə toplamış, fərdi xüsusiyyətləri ilə fərqlənən gənclərdir.
7.Yazıçının “Yeraltı çaylar dənizə axır” əsərinin baş qəhrəmanı kimdir?
Əsərin baş qəhrəmanı Səmirə Aydındır.
8. Mehdi Hüseynin hansı hekayələri ilə tanışsınız?
Onun “Bahar suları”, “Qayıtmadı”, “Quzu”, “Maral əfsanəsi”, “Nişan üzüyü”, “Dost”, “Rəqiblər”, “Qara gözlər” və s... kimi hekayələri var.
9. Mehdi Hüseyn nə zaman vəfat etmişdir?
O, 1965-ci il martın 10-da, yaradıcılığının çiçəkləndiyi bir dövrdə qəflətən vəfat etmişdir.
10. Mehdi Hüseyn hansı əsərinə görə “Dövlət” mükafatına layiq görülmüşdür?
Yazıçı “Abşeron” romanına görə “Dövlət” mükafatına layiq görülmüşdür.
11.Mehdi Hüseynin hansı povestləri ilə tanışsınız?
Povestləri: “Daşqın”, “Kin”, “Fəryad”...
12. Mehdi Hüseynin qələmə aldığı romanların adlarını çəkə bilərsinizmi?

Romanları: “Tərlan”, Abşeron”, “Qara daşlar”, “Səhər”, “Yeraltı çaylar dənizə axır...
13. Mehdi Hüseynin dram əsərləri hansılardır?
Dramları: “Nizami”, “Şöhrət”, “Şeyx Şamil”, Cavanşir”, “Alov” və s.
14. Mehdi Hüseyn hansı ssenariləri qələmə almışdır?
Ssenariləri: “Şair”, “Fətəli xan”, “Səhər”...

Kitabxanada keçirilən maraqlı tədbir formalarından biri də **icmaldır.** İcmalın keçirilməsində əsas məqsəd yazıçının yaradıcılığını oxuculara daha yaxından tanıtmaqdır. Bildiyimiz kimi Mehdi Hüseyn tarix və yazıçı, tarix və sənət, tarix və xalq, tarix və qəhrəman problemlərini yaxşı bilən, bütünlükdə sənətkar və tarix anlayışına çox ciddi yanaşan sağlam məfkurəli, nəzəri cəhətdən hazırlıqlı yazıçılarımızdan biri olmuşdur. Yazıçının “Nizami” və “Yeraltı çaylar dənizə axır” əsərlərinin icmalını keçirmək məqsədyönlüdür. İcmalı keçirmək üçün əvvəlcə əsərin ümumi məzmunu ilə oxucuları tanış etmək lazımdır. ***“Nizami” əsərinin icmalını təqdim edirik:***

Əsərdə Nizaminin həyatından bəzi məqamlar bədii vasitələrlə təsvir edilmişdir. Əsasən Nizaminin Məhsəti Gəncəvi ilə dostluğu, saray şairi olmaq istəməməsi, şahlara qarşı mübarizəsi Afaqa olan ülvi hisləri öz tərənnümünü tapmışdır. Yazıçı Nizaminin dövrünün Məhsəti, Qivami, Munis kimi tanınmış şairlərin əhatəsində, onlarla müqayisədə təsvir edir. Bu müqayisələr göstərir ki, Nizami “tufanlı, qaranlıq gecələrə nur saçan” nadir istedad sahibi olmaqla yanaşı, həm də yüksək bəşəri qayğılarla yaşayan, xeyirxah, humanist təbiətə malik, “heç kimə qul olmaq istəməyən” məğrur, mübariz insandır. O, öz səadətini, xoşbəxtliyini cah-cəlalda, şan-şöhrətdə deyil, xalqın qəlbində yaşamaqda” yer üzündə insanların kədərini azaltmaq üçün çarpışmaqda, ümidsizlərə, gözü yaşlılara, dərdi-səri olan bütün məzlumlara sevinc paylamaqda” görür. Nizami həyatının və ictimai, bədii fəaliyyətinin bütün mərhələlərində “vətəni gülşənə çevirmək” kimi yüksək

humanist arzularla yaşayır. Onun Bərdə gözəli Afaqa olan təmiz, saf, romantik məhəbbəti də məhz bu idealla, amalla bağlıdır. Daha dəqiq desək, "Nizami" dramında vətən, xalq məhəbbəti ilə şəxsi məhəbbət üzvi surətdə birləşərək biri digərini tamamlayır. Ümumiyyətlə, Nizami bir aşiq, məhəbbət qəhrəmanı kimi dövrünün fövqündə dayanır. "Eşqdən başqa söz könlümə yaddır, ömrümün quşuna o, bir qanaddır"- deyən şairin məhəbbəti şəxsi, fərdi anlayış çərçivəsindən çox-çox kənara çıxır, yüksək insani məzmun kəsb edir, ictimai səadət, azadlıq, bərabərlik ideyaları ilə bağlanır. Nizami yaxşı başa düşür ki, ölkənin hökmdarları vətən qeyrətindən məhrum olmaqla yanaşı, həm də xalqın mütərəqqi meyillərini, "azad xəyallarını zəncirləməyə", onun yüksək, idrak, poetik istedad sahibi olan mütərəqqi adamlarını itaətdə saxlamağa çalışan, bu mümkün olmayanda əzən, məhv edən amansız despotdurlar. "Şairlər peyğəmbəri Xaqaninin qolu zəncirli bir qul" kimi məhbəsə atılması, "yurdumuzun böyük şairi Əbülülanın zindanda çürüdülməsi" buna aydın sübut idi. Elə buna görə də Nizami onu dönə-dönə saraya dəvət edən Şirvan hökmdarının bütün təkidlərini qətiyyətlə rədd edir, onun zalımlığını, qəddarlığını, xalqa zidd hərəkətlərini cəsarətlə açıb üzünə çırpır. Şair bu hərəkətindən qəzəblənib onu da, əsərlərini də oda atmağı əmr edən şaha nifrətlə deyir:

"Ey hökmdar, mən zülmündən şikayət edən məzlumların ah-naləsiyəm. Mən parçalanmış bir ölkənin şikəst ürəyindən qopub gələn bir fəryadam. Mən "Sirlər xəzinəsi"ndə onların yüzdə birini demişəm. Mən bir güzgüyəm ki, sənin həqiqi simanı göstərmişəm. Əgər sifətin eybəcərdirsə, onun ləkəsini təmizlə. Bəs nə üçün güzgünü sındırırsan?".

Bəşəri ideallar carçısı olan böyük şairimizin adına, şəxsiyyətinə, nadir istedad nümunəsi olan poetik irsinə, onu yetişdirən ölkəyə, müdrik, qəhrəman xalqımıza dərin hörmət, məhəbbət hissi ilə yazılmış "Nizami" dramı bu gün də bədii tərbiyəvi əhəmiyyətini ititrməmişdir. Həmçinin oxucular

arasında Mehdi Hüseynin **“Yeraltı çaylar dənizə axır”** əsəri əsasında icmal keçirmək olar.

“Yeraltı çaylar dənizə axır” romanının qəhrəmanları öz mərdliyinə, əqidəsinə, böyük amallar uğrunda mübarizə əzminə görə seçilən gənclərdir. Əsərin baş qəhrəmanı Səmirə Aydındır. O, ixtisasca mühəndisdir. Həyat yoldaşı Müdhət II Dünya müharibəsində vuruşarkən ona “vətən xaini” damğasını vururlar. Səmirə Aydının əzablı, məşəqqətli günləri də bundan sonra başlayır. Ərinin “vətən xaini” olduğunu bildikdən sonra onu işlədiyi müəssisədən kənarlaşdırırlar, sürgün edirlər. Lakin o, bütün bu çətinliklərin öhdəsindən gəlir. Həyatda hər zaman qürurla yaşayır. Mənfi tiplərə, şər qüvvələrə qarşı ləyaqətlə mübarizə aparır. Oxucu vətənpərvərlik, xalqına və dostuna sədaqət, iradə möhkəmliyi kimi gözəl cəhətləri Səmirə Aydının simasında tapır. Onun başına gələn müsibətlər müasir dövrün ictimai-siyasi hadisələri ilə bağlı şəkildə cərəyan edir... Oxucular hər cür nöqsanlardan – mücərrədlikdən, birtərəflikdən, sxematizmdən uzaq yeni-yeni insan surətlərini ədibin bu romanında da görürlər. Səmirə Aydının başına gələn müsibətlər müasir dövrün ictimai-siyasi hadisələri ilə bağlı şəkildə cərəyan edir. Yazıçı bu əsərində də müasirliyə sadiq qalır. Ədib əsərdə konkret dövrün və mühitin ictimai hadisələri, insan surətləri bədii ümumiləşdirmə qüvvəsi ilə təsvir olunmuşdur. Səmirə Aydın, Müdhət, Kamran şəxsiyyətə pərəstişin ziddiyyətləri içərisində öz əsas tipik xüsusiyyətlərini – xalqa və vətənə məhəbbəti itirmirlər. Bu əsərin qəhrəmanları öz mərdliyinə, iradəsinə, əqidəsinə böyük amallar uğrunda mübarizə əzminə görə seçilirlər. Yazıçı əsərdə ənənəsinə sadiq qalaraq, böyük amal və ideyalarla yaşayan sabit məqsədli fədakar insan obrazları yaratmışdır. Əsərdə şəxsi səadətlərini ümumi xoşbəxtlikdə axtaran, bütün gözəllikləri, yaxşılıqları zəhmət adamlarının arasında görən, düzlük təmizlik uğrunda ölümə gedən məğrur, vətəndaş insanlar vasitəsilə mənfiliklərə, həyata və insana ləkə gətirən çirkin hallara qarşı mübarizə aparmış,

sağlam əxlaq və namuslu əməyi təbliğ və tərənnüm etmişdir. Roman iki hissədən ibarətdir. Birinci hissədə qabarıq şəkildə verilən hadisələr ikinci hissədə aydınlaşır. Hadisələr durduqca insan əqlinin təntənəsi, onun gücü, məğrurluğu qabarıq şəkildə nəzərə çarpır. Əsərin qəhrəmanı Səmirəni yazıçı bir sıra dəhşətli həyat hadisələrindən keçirir. Haqqı tapdanılan, təhqir və məzəmmətlərə məruz qalan Səmirə yalanlar, fırıldaq və böhtanlarla üzləşir, sevgilisini itirir, evindən-eşiyindən həmçinin övladlarından ayrı düşür. Tənhalaşan, hər şeydən əli üzülən Səmirə yaşamaq eşqindən möhkəm yapışır. Həyata, insanlara inam hissi, böyük yaşamaq ehtirası onu sarsılmağa, əqidəsindən, məsləkindən dönməyə qoymur. Xalqına, vətəninə dərin inam və etiqad ona qələbə qazandırır.
**Konfrans:** Kitabxanada ədəbiyyatşünasların, müəllimlərin tələbələrin, məktəblilərin iştirakı ilə **"İnam və əqidə mücahidi"** adlı **oxucu konfransı** da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Mehdi Hüseynin yaradıcılığına yaxından bələd olan ədəbiyyatşünasların, tarixçilərin, yazıçıların dinlənilir.
Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Mehdi Hüseynin bədii yaradıcılığında tarixi mövzular) ;
2.Məktəblilər Mehdi Hüseynin "Cavanşir" dramından bir hissəni səhnəcik şəklində təqdim edirlər.
3."Mehdi Hüseyn müasirlərinin gözü ilə" mövzusunda kitabxana rəhbərliyinin, ədəbiyyatşünasların, tarixçilərin, yazıçıların, tələbələrin çıxışları;
4. Konfransın yekunu.

**Kitabxanaçı:** İxtisasca tarixçi olan Mehdi Hüseyn bədii yaradıcılığında tarixi mövzulara zaman-zaman müraciət etmiş, bir sıra qiymətli əsərlər yazmışdır. Mehdi Hüseynin uzaq keçmişimizi və inqilabi keçmişimizi əks etdirən epik dram əsərləri haqqında da maraqlı rəylər səslənmiş, fikirlər yürüdülmüş və mətbuatda bir-birindən fərqli, dolğun məqalələr dərc edilmişdir. Bu baxımdan yazıçının 1940-1941-ci illərdə Azərbaycan şairi Nizami Gəncəvinin həyatından bəhs edən "Nizami" dramı böyük marağa səbəb olmuşdur. Müharibə illərində xalqımızın qəhrəmanlıq tarixini əks etdirmək xüsusilə vacib idi. Çünki bu illərdə xalqımızın, əsasən də gənclərimizin vətənpərvərlik duyğularını, faşist işğalçılarına qarşı mübarizə duyğularını alovlandıran dram əsərlərinə də böyük ehtiyac duyulurdu. Bu baxımdan Mehdi Hüseynin Azərbaycan xalqının poetik dühasının əzəmətini təcəssüm və tərənnüm etdirən dahi Nizaminin dövrü, həyatı, həmçinin IX əsrdə xarici işğalçılara qarşı üsyanlara başçılıq etmiş Alban hökmdarı igid sərkərdə Cavanşir haqqında yazdığı dram əsərləri xüsusi təqdirəlayiqdir və siyasi-ictimai əhəmiyyət kəsb edir. "Nizami" pyesini ədib müharibənin ilk illərində, "Cavanşir" pyesini isə bir qədər sonra qələmə almışdır. Başqa əsərlərdə olduğu kimi, bu dramda da tarixə müasirlik nöqteyi-nəzərindən yanaşmışdır. Əsərdə Nizaminin Ana Vətənə, onun füsunkar təbiətinə vurğunluğu qələmə alınmışdır. Mehdi Hüseyn "Nizami" dramından sonra 1943-cü ildə "Odlu qılınc" hekayəsini yazmış, sonra bu mövzunu inkişaf etdirərək Azərbaycan tarixinin mübarizəli səhifələrini özündə əks etdirən "Cavanşir" dramını qələmə almışdır. Yazıçının qarşıya qoyduğu məqsəd Cavanşirin timsalında xalqımızın qəlbində vətənpərvərlik duyğularını alovlandırmaq, onu uğurlara, qələbələrə səsləmək olmuşdur. Mehdi Hüseynin təsvirində Cavanşir bütün varlığı ilə Vətənə bağlı olan, xalqı üçün heç nəyi əsirgəməyən bir qəhrəmandır. Böyük sərkərdənin ürəyi böyük arzularla doludur. O, vətən övladlarını dünyanın hansı ölkəsində olurlar-olsunlar, öz ana

torpaqlarını, öz elini, obasını unutmamağa çağırır… Vətənin istiqlaliyyəti və azadlığı Cavanşir üçün hər şeydən qiymətlidir. Azərbaycanın müstəqil bir dövlət kimi yaşaması üçün çalışmağı o, birinci dərəcəli vəzifə hesab edir. O deyir: "Mən istərdim ki, ana torpağımız azad, daima firavan yaşasın…" Mehdi Hüseynin vətənpərvər qəhrəmanının ürəyindən keçən bu sözlər ədibin öz sözləri, öz arzusu idi. Çox təəssüf ki, o, xalqının və ədəbiyyatının müstəqil və azad olduğu, respublikamızın günü-gündən çiçəklənib inkişaf etdiyi günü görmədi.

*Məktəbli oxucular "Cavanşir" dramından bir parçanı konfrans iştirakçılarına təqdim edirlər.*

**I İştirakçı:** Mehdi Hüseynin yazıçı və tənqidçi kimi ən yaxşı xüsusiyyətləri müharibə illərində, sosializm sözü vətən sözü ilə əvəz olunduqdan sonra meydana çıxmışdır. Müharibə illərində sosialist realizminin sxemləri lazımsız bir şeyə çevrildi. Moskvanın vətənpərvər əsərlər yazmaq çağırışına Mehdi Hüseyn "Şeyx Şamil", "Nizami", "Cavanşir", "İntizar" kimi pyeslər yazmaqla cavab verdi. Bu əsərlərin dəyəri sxemlərdən nisbətən uzaq olmasında, xalqımızın öz keçmişini və öz milli gerçəkliyini əks etdirməsində idi. Bu əsərlərdə işlənən tarixi mövzular, Şeyx Şamil, Cavanşir, Nizami Gəncəvi kimi vətənpərvər insan və şəxsiyyət obrazlarının, tarixi şəxsiyyətlərimizin səhnəyə gəlməsi böyük hadisə idi. "Nizami", "Cavanşir", "Şeyx Şamil" kimi əsərlər milli ədəbiyyat cərəyanının ümumi istiqaməti ilə səsləşirdi. Lakin Mehdi Hüseyn tarixi mövzularda belə yaratdığı qəhrəmanların sinfi simasını qabarıq göstərməyə çalışırdı. Yazıçı müharibə illərində altı bədii, publisistik, elmi kitab buraxdırmış və əhatəli elmi fəaliyyətlə də məşğul olmuşdu.

## II hissə: "Mehdi Hüseyn müasirlərinin gözü ilə"

**II İştirakçı:** Sənətə, sənətkara qiymət vermək bacarığı Mehdi Hüseyndə güclü idi. O yazırdı: "…Böyük bədii əsərlər yaradan

sənətkarın ilk növbədə böyük fikirləri, böyük hissləri və böyük ehtirasları olmalıdır". Bu dərin fəlsəfi məna kəsb edən qiymətli sözləri ədibin özünə aid etmək daha ədalətli olar. Əgər böyük fikirlər, böyük hisslər onda olmasaydı, ədəbiyyatımızı, ədəbi fondumuzu zənginləşdirən, dünya xalqlarının dilinə tərcümə edilən "Abşeron" romanı, "Abşeron"un davamı olan "Qara daşlar", inqilabi keçmişimizi əks etdirən "Səhər", insan iradəsinin sarsılmazlığına və insan qüdrətinin təntənəsinə həsr edilmiş "Yeraltı çaylar dənizə axır" kimi monumental, epik romanları, yaxud uzaq keçmişimizi yenidən canlandıran, vətənpərvərlik ruhunda qələmə alınan "Nizami", "Cavanşir" kimi pyesləri, Dağıstanın qəhrəmanlıq tarixindən bəhs edən "Şeyx Şamil" əsəri yaranardımı, ədəbiyyatımızın, ədəbi tənqidimizin elmi, tənqidi, nəzəri, estetik-fəlsəfi problemlərini dolğun işıqlandıran və bugünkü gündə də gənc elmi işlə məşğul olan tədqiqatçılarımızın stolüstü təqviminə çevrilən "Ədəbi döyüşlər", "Ədəbiyyat və sənət məsələləri", "Ədəbiyyat və həyat" və s. kimi kitabları olardımı?

**III İştirakçı:** Xalq yazıçısı İsmayıl Şıxlı düzgün qeyd edir ki, Mehdi Hüseyni ədəbi tənqidin və ədəbiyyatşünaslığın bütün sahələri maraqlandırmışdır. Ədəbi ictimaiyyətimizi düşündürən elə bir sahə yoxdur ki, orada Mehdi Hüseynin səsi eşidilməsin. Ədibin yaradıcılığının böyük bir qismini onun tənqidi-nəzəri əsərləri təşkil edir. Mehdi Hüseyn ədəbiyyat tariximizdə mübariz bir tənqidçi kimi yaşayır. Mehdi Hüseyn böyük bir məktəb idi. Bu məktəbdən milyonlarla oxucu faydalanır, onun qoyub getdiyi ədəbi irsə maraq gündən-günə artır. Qeyd etmək lazımdır ki, böyük şair və yazıçılarımızdan Səməd Vurğun, Mirzə İbrahimov, Mir Cəlal, Rəsul Rza, İsmayıl Şıxlı və b. Mehdi Hüseyn yaradıcılığından söhbət açarkən ilk növbədə ədibin müasirliyini ön plana çəkirlər.

**IV İştirakçı:** Maraqlıdır ki, müasir mövzuda yazılan əsərlər içərisində Səməd Vurğun "Abşeron" romanını xüsusilə

qiymətləndirir. O yazırdı: "…Son illərdə Azərbaycan yazıçılarının müasir mövzuda yaratdığı əsərlər içərisində Mehdi Hüseynin "Abşeron" romanı diqqəti cəlb edir. Yüksək yazıçılıq mədəniyyətinə malik olan Mehdi Hüseyn bu əsərində usta Ramazan, yeni sovet ailəsini təmsil edən Lalə və Qüdrət İsmayılzadələr kimi bir sıra canlı, müsbət insan surətləri yaratmağa müvəffəq olmuşdur. Romanın yaxşı cəhətlərindən biri də odur ki, burada vətənpərvərlik həyati, əyani bir şəkildə insanların işində və fəaliyyətində verilir". Mehdi Hüseynin müasir mövzuda yazdığı əsərləri içərisində Səməd Vurğunun, əlbəttə, "Abşeron" romanını seçməsi təsadüfi deyildir. Ədib bu romanı müasir dövrün tələblərinə cavab olaraq qələmə almışdır. Şərəfli mövzuda – neft mövzusunda roman yazmaq, Bakı neftçilərinin həyatını, fədakar əməyini, vətənpərvərliyini əks etdirmək, müasir həyatımızın hər nöqtəsində əməyin təcəssümünü görüb göstərmək yazıçılarımız qarşısında məsuliyyətli və ciddi məsələ idi. Mehdi Hüseyn novator yazıçı kimi bu vəzifənin öhdəsindən layiqincə gələ bilmişdir.

**V İştirakçı:** Mehdi Hüseynin 1957-1958-ci illərdə "Abşeron"un davamı kimi qələmə aldığı "Qara daşlar" romanı da, oxucular və ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Roman yalnız yerli mətbuatın deyil, eyni zamanda, mərkəzi mətbuatın da diqqətini özünə cəlb etmişdir. Romanda "Abşeron"dan bir qədər fərqli olaraq köhnəliyə, bürokratizmə qarşı amansız mübarizə təsvir olunur. Bu roman haqqında görkəmli alim, akademiklərimizin, ədəbiyyatşünaslarımızın da bir-birindən fərqli fikirləri maraq doğurur. Əgər akademik Məmməd Arif bu romanı və ümumiyyətlə, Mehdi Hüseyn yaradıcılığını müsbət qiymətləndirirsə, "Qara daşlar" romanında neft adamlarının sərt təbiətlə apardığı inadlı mübarizəsini, müasir insanların vətənpərvərliyini, rəşadət və fədakarlığını böyük yazıçılıq cəsarət və səmimiyyəti ilə göstərirsə, müasirimiz olan yeni insan ədibin yaradıcılığında mühüm yer tutur deyirsə, Mir Cəlal isə ondan fərqli olaraq, daha çox diqqətini bu əsərin surətləri

üzərində dayandırır. Bu surətlərin dolğun və rəngarəngliyini, onların simasında əməyin insana səadət və xoşbəxtlik gətirən məfhum kimi tərənnüm edilməsini, xalqlar dostluğunun, vətənpərvərlik ideyalarının qabarıq şəkildə yeniliklə köhnəlik uğrunda gedən mübarizənin bədii boyalarla verilməsini, təbiət təsvirlərinin canlı və reallığını, kəndlə şəhər arasındakı əlaqələrin inandırıcı bir şəkildə əks etdirilməsini yazıçının müvəffəqiyyəti hesab edir.

**VI İştirakçı:** Mehdi Hüseyn ədəbiyyata aktual mövzu ilə gəlmişdir. Onun ilk əsəri çobanların həyatından bəhs edən "Qoyun qırxını" adlı hekayəsidir. Ədib, yaradıcılığının ilk illərindən dövrün, zamanın tələblərindən irəli gələn aktual mövzulardan yapışırdı. Onun 1930-cu ildə nəşr etdirdiyi "Xavər" və "Bahar suları" kitablarında toplanan hekayələr öz aktuallığı ilə ədəbi ictimaiyyətin diqqətini özünə cəlb etmişdi. Bu hekayələr müxtəlif mövzularda idi: qadın azadlığı, xalqlar dostluğu, fəhlə həyatı və s. yazıçının yaradıcılığına həsr olunmuş ilk yazılar, ressenziyalar məhz 30-cu illərə təsadüf edir. Ədibin "Xavər" adlı hekayələr məcmuəsi haqqında ilk məqaləni onunla bir dövrdə yaradıcılıq fəaliyyətinə başlamış Xalq yazıçısı Əli Vəliyev yazmışdır. Ə.Vəliyev "Xavər" hekayəsində Mehdi Hüseynin qadın azadlığı məsələsinə toxunduğunu müsbət qiymətləndirir. Doğrudan da, gənc ədibin bu dövrdə qadın azadlığı kimi ciddi bir mövzuya əl atması diqqətəlayiq bir hadisə idi. Çünki Azərbaycan qadınının ailə - məişət çərçivəsindən xilas olub, ictimai həyata atılması çox çətin, çox mürəkkəb yollarla başa gəlmişdir. Bunu bədii əsərdə düzgün, realistcəsinə və inandırıcı bir şəkildə əks etdirmək gənc yazıçıdan böyük cəsarət tələb edirdi. Xavər Mehdi Hüseynin hekayəsində ictimai həyata atılmış işgüzar, gözüaçıq, kişilərlə bir hüquqda olan qadın surəti kimi verilir. Mehdi Hüseyn onun simasında gənc Azərbaycan bədii nəsrinə ilk dəfə olaraq müasir, ictimaiyyətçi qadın surəti gətirmişdir. Bu surəti ədəbiyyatımıza gətirməklə ədib Azərbaycan qadınlarını xalq işində, cəmiyyət işində, dövlət

işində aktiv bir surətdə inkişaf etməyə, cəmiyyətimizin faydalı üzvü olmağa ruhlandırmışdır.

**VII İştirakçı:** İlyas Əfəndiyev ədibin insanların daxili aləmini açıb göstərmək, həm də doğru göstərmək, psixoloji anları ifadə etmək istedadını çox yüksək qiymətləndirmişdir. O, Mehdi Hüseynin "Fəryad" povestində yaratdığı qəhrəmanlardan Vəlinin, Şamilin əsl əmək adamları, vətənpərvər və humanist insanlar olduğunu düzgün müəyyən etmişdir. İ.Əfəndiyev bu xüsusda öz fikirlərini belə ifadə edir: “Şübhə yoxdur ki, Mehdidə qüvvətli və həssas müşahidə bacarığı ilə bərabər duyğularını ifadə etmək qabiliyyəti də vardır. Şamil düşmən pulemyotunu susdurmağı Vəliyə əmr etdikdə ədib qəhrəmanının qəlbinə diqqət edir və orada baş qaldıran ilk duyğuları düzgün görür”.

**VIII İştirakçı:** Doğurdan da, Mehdi Hüseyn oxucularını yaratdığı bədii surətlərin daxili aləminə nəzər salmağa və orada olan rəngarəngliyi görməyə vadar edir. Bu rəngarənglik şüurla ölümə gedən Vəlinin daxili aləmində özünü daha parlaq nümayiş etdirir. İlyas Əfəndiyev əsərin gözəl üslubla, sadə və anlaşılan dil ilə yazıldığını da xüsusi qeyd edir. O, göstərir ki, "Fəryad" aydın, şəffaf üslubla yazılmışdır. İstər ruhi təşrihlər və istərsə də hadisənin ümumi gedişi şəffaf və yığcam təsvir edilir ki, hər şey oxucunun gözləri qarşısında tam bir aydınlıqla süzülüb keçir. Ədibin fikrincə, əsərin dili şit bədiilikdən uzaqdır. Hər söz öz yerində, yığcam və sərt bir bədiliyə malikdir. Əsərdəki şəffaflıq da əsasən bu xüsusiyyətlərdən yaranır…

**IX İştirakçı:** Qeyd etmək lazımdır ki, ədib tarixi mövzuda yazdığı əsərlərində belə müasirlik ruhunu canlandırmışdır. “Müasirlik bizim idealımızdır. Ədəbiyyatımızın şah damarıdır…" deyən ədib müasirliyinə sadiq qalaraq sonra qələmə aldığı əsərlərini yenə müasir mövzuda canlandırmışdır. Buna onun "Alov" pyesi və həm ədibin və həm də Azərbaycan nəsrinin qələbəsi hesab edilən "Yeraltı çaylar dənizə axır"

romanı misal ola bilər. Bu əsərləri ideya bədii cəhətdən düzgün qiymətləndirən İsmayıl Şıxlı yazırdı: "Mehdi Hüseyn yaradıcılığının son anına qədər müsbət amal və ideya uğrunda vuruşan, ən ağır vəziyyətlərdə belə sarsılmayan, mətanət və mərdlik rəmzi olan iradəli insanları əsərlərinə qəhrəman seçmişdir. Onun bu qəhrəmanları insanların səadəti və xoşbəxtliyi üçün özlərini məşəl kimi yandırırlar. Onlar şəxsi səadətlərini ümumin xoşbəxtliyində görürlər. Bu cəhətdən onun "Alov" pyesi və son romanı - "Yeraltı çaylar dənizə axır" maraqlıdır…" Yazıçının bu sözlərinin böyük həqiqət olduğunu oxucu və tamaşaçılar ədibin "Alov" pyesinin qəhrəmanı, həqiqəti, doğruluğu, ədaləti özü üçün ideal seçən Fərhad Kamalovun, "Yeraltı çaylar dənizə axır" əsərinin qəhrəmanı, bütün çətənliklərə sinə gərərək bir an belə sarsılmayan polad iradəli Samirə Aydının simasında görürlər.

Konfransın yekunu:

**X İştirakçı:** Bu, şöhrətli sənətkarın, alovlu publisistin, görkəmli dövlət xadiminin keçdiyi şərəfli həyat yolu, yaradıcılıq yolu ictimai varlığın bədii ifadəsi olan ədəbiyyatımızın böyük bir qolu və ayrılmaz hissəsidir. O, bəşəri fikirlər carçısı idi, xalqının amalını göylərə ucaltmaq üçün çalışırdı. Ədibin istər sağlığında və istərsə də ölümündən sonra böyük ədəbiyyat yaranmışdır. Bu hərəkat hal-hazırda davam edir.

*Sonda oxucular arasında konfransda ortaya qoyulmuş mövzularda fikir mübadiləsi apara bilərlər.*

Kitabxanada keçirilən əsas tədbirlərdən biri **ədəbi-bədii gecədir**. Bədii gecəni keçirmək üçün əvvəlcədən kitabxanaçı tərəfindən hazırlıq görülməlidir. Bədii gecəni müxtəlif adlarla adlandırmaq olar. Belə ki, gecəni ***"Ədəbi tənqidimizin cəngavəri"*** adı ilə təqdim edirik:

## “Ədəbi tənqidimizin cəngavəri”

*(Ədəbi-bədii gecə)*

*(Səhnə yazıçının şəkli, şəklin ətrafında əsərlərini əks etdirən illüstrasiyalarla bəzədilir, müvafiq yerlərdə sitatlar verilir*).

**I aparıcı:** Hörmətli qonaqlar! Görkəmli nasir, dramaturq, ictimai xadim, tədqiqatçı Mehdi Hüseynin anadan olmasının 110 illik yubileyi ilə əlaqədar təşkil etdiyimiz ədəbi-bədii gecəyə xoş gəlmisiniz. Yubilyara həsr etdiyimiz təntənəli gecəmizi açıq elan edirik!

**II aparıcı:** Zaman ötdükcə çox şey solur, hətta yaddaş da. Ötən ilki qurumuş köklərin, xəzələ dönmüş yarpaqların altından bir də görürsən yamyaşıl ot cücərir. İllərin üstündə qalanmış layların arasından ağıllı və gümrah insan baxışı, sərrast deyilmiş parlaq bir söz də beləcə üzə çıxır. Bəli, dəyərli yazıçımız Mehdi Hüseynin də qələmi belə sözləri yaradır, nəqş edirdi. Mehdi Hüseyn bütün şüurlu həyatını Azərbaycan xalqının mədəniyyətinə həsr edən gözəl bir ədibdir. O, ədəbiyyatımızın yorulmaz əsgəri idi. Yazıçı ədəbiyyatımıza qədəm qoyduğu ilk günlərdən mürəkkəb, mübarizəli, keşməkeşli həyat yolu keçmiş, ön atəş xəttində, odlu qələm əlində, ideya döyüşlərində mübarizə aparmışdır. Yazıçının yüksək intellektual fikir, qüsursuz bədii estetik zövq və həqiqət duyğusunun məhsulu olan elmi və tənqidi məqalələri xalqımız üçün dəyərli mənbələrdir.

**I aparıcı:** Mehdi Hüseynin əsərləri hələ otuzuncu illərdən yayılmağa, diqqəti cəlb etməyə başlamışdır. Onun bir sıra həcmcə xırda, mövzu etibarilə əhəmiyyətli, məzmunca zəngin hekayələrindən istedadlı gənc bir qələm sahibinin səsi gəlirdi... Bəli, bu üsul Mehdinin öz orijinal üslübü idi. Onun kamil əsərləri respublikada sevildiyi kimi, dünyanın hər yerində mütərəqqi adamlar tərəfindən də sevilə-sevilə oxunur, təqdir olunur. Bəli, Mehdi Hüseynin zəngin yaradıcılıq yolu, dərin məzmunlu, yüksək məfkurəli və mənalı əsərləri gənc nəslimiz

üçün ən yaxşı tərbiyə vasitəsidir. Mehdi Hüseyn xalqımızın böyük, unudulmaz sənətkarıdır. O, həm böyük yazıçı, həm qüdrətli dramaturq və tənqidçidir. Mehdi Hüseyn öz prinsipiallığı, cəsarəti və qorxmazlığı ilə daima ədəbiyyatımızın keşiyini çəkmişdir. Mehdi Hüseyn yaşadığı aləmə xeyirxah və müdrik münasibət bəsləyirdi.

**II aparıcı:** Mehdi Hüseyn ədəbiyyatımızın ideya-bədii saflığını, şan - şərəfini uca tutan, qoruyan, bu yolda hər bir fədakarlığa cəsarətlə gedən və həmişə də qalib gələn xarakterik ədib idi. Onun zəngin, mənalı, məzmunlu yaradıcılıq yolu əsərləri kimi işıqlıdır. Bəli, Mehdi Hüseynin yaradıcılığı gənc nəslə parlaq nümunədir. Mehdi Hüseynin ilhamı qüdrətli və çoxcəhətli idi. O, həm gözəl realist roman və hekayələri ilə, həm xalqımızın rəşadət, şücaət, qəhrəmanlıq ənənələrini tərənnüm edən səhnə əsərləri ilə, həm də dərin elmi, fəlsəfi məzmunlu ədəbi məqalələri ilə oxucusunun məhəbbətini qazanmış, qəlbini fəth etmişdi. Onun, xüsusən, Vətən müharibəsi dövründə və sonrakı illərdə yaratdığı bədii, elmi publisist əsərləri ədəbiyyatımızın xəzinəsini zənginləşdirən qiymətli incilərdir.

**I aparıcı:** Azərbaycanın qəhrəmanlıqla dolu tarixi keçmişini məhəbbətlə qələmə alan Cavanşir, Nizami, Sabir, Xanlar və başqalarının ölməz obrazlarını yaradan, müasirlərimizin əmək xariqələri haqqında dastanlar yazan Mehdi Hüseyn görkəmli nasir, istedadlı dramaturq və prinsipial ədəbiyyatşünas idi. Bir çox oxucu nəsli onun əsərləri ilə tərbiyələnib, mənəvi qida alıb. Mehdi Hüseyn öz əsərlərində oxucuları Vətəni, xalqı sevməyə, yüksək milli ənənələrimizi qoruyub saxlamağa, əməksevər olmağa çağırıb. Məhz buna görədir ki, görkəmli sənətkarımız yalnız Azərbaycanda yox, ölkəmizin hər yerində sevilir, oxunur. Bəli, Mehdi Hüseyn həm alovlu publisist, həm də ictimai xadim idi.

**II aparıcı:** Mehdi Hüseyn xalqın istək və arzularını qələmə alan, onun keçmişini və bu gününü gələcək nəsillər üçün əbədiləşdirən, öz əsərləri ilə xalq qəhrəmanlarına heykəl ucaldan

sənətkar idi. Ədəbiyyatımızın qızıl fonduna “Abşeron”, “Cavanşir”, “Alov” və bu kimi onlarca əsərlər vermiş, parlaq və zəngin istedada malik sevimli Xalq yazıçısı Mehdi Hüseynin yaradıcılığı Azərbaycan mədəniyyəti tarixində mühüm səhifələrdən birini təşkil edir. Mehdi Hüseyn müasir Azərbaycan və ümumən bütün sovet ədəbiyyatının inkişafında həm qələmi, çoxcəhətli, zəngin yaradıcılığı ilə, həm də ictimai və təşkilatçılıq fəaliyyəti ilə böyük rol oynamış sənətkar və ədəbiyyat xadimi idi. O, xalqımızın müasir mədəniyyət tarixində unudulmaz şəxsiyyətlərdəndir. Mehdi Hüseynin nəzəri – tənqidi fikri də bədii təfəkkürü kimi qüvvətlidir. Əkiz yaranmış hər iki istedad öz sahibinə layiqli şöhrət qazandırmış, bizim ədəbii – bədii və tənqidi irsimizi zənginləşdirmişdir.

**I aparıcı:** Mehdi Hüseyn nəinki bir ədib, dramaturq, ssenarist və ictimai xadim olmuş, həm də bir folklorşünas-ədəbiyyatşünas kimi maraqlı, qiymətli irs qoymuşdur. Yazıçı dövrünün ədəbi proses və hadisələrini izləməklə qalmamış, xalqın mənəvi sərvəti olan dastanları, nağılları, bayatıları da öyrənmişdir. O, bu sənət əsərlərini təkcə bədii yaradıcılıqda mənbə kimi baxmamış, sevmiş, öyrənmiş və bir ədəbiyyatşünas kimi münasibətini bildirmiş, xalq sənətinin ölməz abidələrinə layiqli qiymət vermişdir. Onun amalı ədəbiyyat idi. Mehdi Hüseyn bir sənətkar, nəzəriyyəçi və təşkilatçı kimi həmişə təbliğ etdiyi yüksək, işıqlı ideალların simvolu olmuşdur. Xalq işinə, cəmiyyət mənafeyinə, yüksək məqsədlərə təmənnasız xidmət edən ədəbiyyat onun amalı idi.

**II aparıcı:** Mehdi Hüseynə görə Azərbaycan ədəbiyyatı və incəsənətinin ən gözəl məziyyətlərindən biri onun həyatla, cəmiyyətlə bağlı olmasıdır. O tələb edirdi ki, sənətkar həmişə zamanın nəbzini tutmalı, bədii söz kimi kəsərli silahdan sərrast istifadə etməyi bacarmalıdır. Çünki sənətkar vətəndaşdır, öz əsərinin oğludur, o həyatın misilsiz sürətini bədii obrazlar vasitəsilə verməlidir. Öz bədii, elmi və ictimai fəaliyyətini cəmiyyətimizin mənafeyinə həsr etmiş görkəmli ədibimiz

Mehdi Hüseynin yaradıcılığı müasirlik duyğusu, bədii sənətkarlıq səviyyəsi və həyati aktuallığı ilə daim müraciət olunmağa, öyrənilməyə layiq olan bir sənət qaynağıdır.
**I aparıcı:** Azərbaycan fəhlə sinfinə, xüsusən qəhrəman Bakı neftçilərinin həyat və mübarizəsinə həsr etdiyi əsərlər ("Abşeron", "Qara daşlar", "Səhər"...) sovet ədəbiyyatı tarixində şərəfli yer tutmuş və həmişə də tutacaqdır. Mehdi Hüseynin alovlu, ictimai ehtirasları yalnız ədəbiyyat çərçivəsinə sığmırdı. O, Mirzə Cəlil, Sabir, C.Cabbarlı, S.Vurğun xarakterli ədib idi. O, xalqını Vətənini hər yerdə siyasətdə, ictimaiyyətdə, ədəbiyyatda ləyaqətlə təmsil edən bir ədib idi. Təsadüfi deyil ki, o, yalnız Azərbaycanda deyil, sərhəd xaricində də hörmət və şöhrət qazanmışdır. Mehdi Hüseyn ictimai hadisələrə heç bir zaman biganə qalmamış, ədəbi gəncliyi də bu ruhda tərbiyə etmək istəmişdir. Mehdi Hüseyn bütün varlığı ilə sevdiyi ədəbiyyatımızın yolunda hər cür fədakarlığa gedən, hər şeyi, hətta canını da qurban verən bir ədib idi. Ədəbiyyat haqqında ən adi oxucunun şirin bir sözü onun könlünü qanadlandırır, ruh yüksəkliyi verirdi.
**II aparıcı:** Dünyada elə gözəl şəhərlər var ki, hər hansı bir romanın hadisələri əgər həmin şəhərlərdə baş verirsə, bu şəhərlərin özləri də həmin əsərlərin mərkəzi qəhrəmanı olur. Dos-Pasosun təsvirində Nyu-York, J.Amadunun təsvirində Bayya, Emil Zolyanın, Viktor Hüqonun, Lui Araqonun təsvirində Paris belədir... Bakı şəhərinin də öz romanı yarandı – "Abşeron". Elə bir bir roman ki bu şəhərin metal qurğuları ilə, onun günəşi və dalğaları ilə həmahəngdir, onun zəngin xəzinəsinə yol açan kəşfiyyatçıların inadkar fəaliyyəti ilə səsləşir..
**I aparıcı:** Yazıçı taleyi, yazıçı sənəti və şəxsiyyəti dövrlə, zamanla bağlı olur. Yazıçının fikir və hiss aləmi, fəlsəfəsi və estetikası, yaradıcılıq prinsipləri zamanın, onun sosial bəşəri təcrübəsinin, bədii hissi idrakının, bəhrəsidir, yazıçı öz dövrünün, müasirliyin övladıdır. Zaman, müasirlik belə

yazıçıların əsərlərində, yaradıcılığında, görüşlərində öz qüvvətli, davamlı, mahiyyətli xüsusiyyətləri ilə əks olunur. Mehdi Hüseyn böyük sənət fədaisi kimi ənənə və novatorluğa dair tənqidi məqalələrində öz nəzəri müddəalarını mücərrəd şəkildə yəni ayrı-ayrı bədii əsərləri məhz özünə və onun qazandığı nailiyyətlərlə əlaqəli tərzdə təhlil edirdi.
**II aparıcı:** İyirminci-otuzuncu illərdə yeni, müasir ədəbiyyatın bünövrəsini qoymuş uzun bir dövr üçün ideya və bədii mövqelərini təyin etmiş ədəbi nəslə mənsub yazıçıların əksəriyyəti kimi Mehdi Hüseyn də, ədəbiyyata ilk adddımlarından etibarən bütün varlığı ilə böyük yaradıcılıq ideallarına bağlanmışdır. Mehdi Hüseynin yazıçılıq siması, çoxcəhətli yaradıcılıq fəaliyyəti mürəkkəb, təzadlı, çətin bir dövrün hadisələri və mübarizələri içərisində təşəkkül tapmış, inkişaf etmiş və dərinləşmişdir.
**I aparıcı:** Mehdi Hüseyni bir sənətkar kimi səciyyələndirən başlıca məziyyətlərindən biri budur: o, yaradıcılığını bütünlüklə iştirakçısı və ideya rəhbərlərindən olduğu müasir ədəbi proseslə üzvi surətdə əlaqələndirirdi. İstər roman yazan, istər dramaturq, istərsə də tənqidçi və nəzəriyyəçi kimi fərqi yoxdur, o, Azərbaycan ədəbiyyatının inkişafından, onun qarşısında duran böyük və vüsətli vəzifələrdən ayrılmazdır. Yazıçı və ədəbi proses arasındakı bu qırılmaz bağlılığı Mehdi Hüeyn çoxcəhətli yaradıcılığının bütün əsas sahələrində görmək mümkündür. Bir romançı kimi Mehdi Hüeynin yaradıcılığı “Daşqın”, “Tərlan roman və povestləri nəsrin iri, əhatəli janrına müraciətinin ilk nümunələri idi. Bu əsərlərdə cərəyan edən hadisələr, təsvir olunan insanlar dramatik tarixi prosesin hadisə və insanları idi. Əgər 30-cu illərdəki nəsrində, ilk romanlarda müəyyən hadisəçilik ünsürləri vardısa, müharibə və müharibədən sonrakı illərdə biz yazıçının çoxcəhətli, psixoloji tutumlu insan xarakterlərinə müraciət etdiyini görürük. İnsan qəlbinin dialektikasını açmağa yazıçıda xüsusi bir ehtiyac gücləndiyini müşahidə edə bilərik.

**II aparıcı:** Məhz buna görə də Mehdi Hüseynin yaradıcılığı yeni ədəbi prosesin qanunauyğun bir hadisəsidir. Yazıçının yaradıcılığını, görüşlərini, mövqeyini onun içərisində fəaliyyət göstərdiyi, iştirakçısı olduğu ədəbi prosesdən kənarda təsəvvür etmək qeyri-mümkündür. Mehdi Hüseyn yaradıcılığı gəncliklə, bu günlə, gələcəklə bağlı yaradıcılıqdır. Müasir cəmiyyətimizi quran gənclərimizin işi, mübarizəsi, həyat tərzi, cəmiyyətə baxışı yazıçını həmişə düşündürürdü. Yazıçının elə bir əsəri tapılmaz ki, o, gənclərlə bağlı olmasın. Onun əsərlərinin baş qəhrəmanları zamanın bütün ağırlıqlarını çiyinlərində daşıyan, münaqişələrdən keçərək irəliləyən, bəzən də səhvlər edən, lakin öz əqidələri uğrunda dönmədən mübarizə aparan yenilməz gənclərdir.
**I aparıcı:** "Yeraltı çaylar dənizə axır" povesti, "Alov" pyesi bu qəbildən olan əsərlərdir. "Alov" pyesinin baş qəhrəmanı müstəntiq Fərhad Kamalov az qala üstü örtülüb unudulmuş bir cinayəti açmaqla məşğul olur və öz ölümü bahasına başa gəlsə də məqsədinə çatır. Güman etmək olar ki, Kamalov bu işlə məşğul olmaya da bilərdi, öz həyatını təhlükəyə atmaya da bilərdi. Amma iş də elə ondadır ki, sarsılmaz bir məslək sahibi olan və bu məsləkə möhkəm inanan Kamalov başqa cür edə bilmir. İnsanpərvər qəlbi, yüksək vətəndaşlıq məsləki uğrunda yanmağa, alovlanmağa vadar edir.
**I aparıcı:** Bəli, Azərbaycanın qəhrəmanlıqla dolu tarixi keçmişini məhəbbətlə qələmə alan Cavanşir, Nizami, Sabir və başqalarının ölməz obrazlarını yaradan Mehdi Hüseyn görkəmli nasir, istedadlı dramaturq və prinsipial ədəbiyyatşünas idi. Onun əsərləri təkcə respublikamızda deyil, eyni zamanda bütün qardaş respublikalarda geniş yayılaraq ümumxalq şöhrəti qazanmış və məşhurlaşmışdır. Bir şox əsərləri müxtəlif xalqların dilinə tərcümə edilmişdir. Daha çox tərcümə edilmiş əsəri isə "Səhər" romanıdır. Yazıçının yaradıcılığında Azərbaycan xalqını çoxəsrlik tarixinin bir çox səhifələri, onun mübarizəsi, həyatı, məişəti, psixologiyası əks olunub. "Daşqın", "Tərlan", "Kür",

“Alov”, “Abşeron”, “Qara daşlar”, “Yeraltı çaylar dənizə axır”, “Nizami”, “Cavanşir” və s... əsərləri neçə-neçə oxucu nəslinin yaddaşında yaşayır. O, bütün yaradıcı gəncliyin mənəvi atası, müdrik məsləhətçisi, qayğıkeş müəllim idi.

**II aparıcı:** Mehdi Hüseyn Azərbaycan ədəbiyyatının demək olar ki, bütün inkişaf mərhələlərini bu və ya digər dərəcədə tədqiqat obyektinə çevirmişdir. Şifahi xalq ədəbiyyatı, “Kitabi-Dədə Qorqud” dastanı, Nizami, Nəsimi, Füzuli, Vaqif, Axundov, Sabir, Məmmədquluzadə, Cavid, Cabbarlı, Ordubadi və s... nəhəng söz ustalarının həyat və yaradıcılığının tədqiqinə tənqidçi dəfələrlə müraciət etmişdir. Tənqidçi şifahi xalq ədəbiyyatının tədqiqində diqqəti ümumi cəhətlərə bu nümunələrlə xalq həyatının, xalqın arzu-istəyinin ideallarını sıx yaxınlığına yönəlirdisə, yazılı ədəbiyyatın öyrənilməsində fərdi özünəməxsusluğunu ön plana çəkirdi. Adətən belə zənn edirlər ki, keçmişin böyük klassiklərini yaşadan onların ifadə etdikləri ümumbəşəri ideallardır... Lakin Nizaminin ümumbəşəri idealar ifadə etmiş bir sənətkar kimi söyləməklə kifayətlənmək hələ bir şey demək deyil.

**I aparıcı:** Buna görə də Mehdi Hüseyn Nizamidə tənqidçi müasirliyi, romantikanı, Sabirdə novatorluğu onun yaradıcılığındakı vətəndaş mövqelərini, Natavanda dövrə bağlılığını, Aşıq Ələsgərdə ictimai problemi, səmimiyyəti, M.F.Axundov dramaturgiyasında xəlqiliyi və yenilikləri yüksək qiymətləndirir, sənətkar adını, irsini yaşatmağa qadir, layiq spesifik cəhətlər kimi ümumiləşdirirdi. Azərbaycan ədəbiyyatşünaslığının və ədəbi tənqidin bir çox nəzəri məsələləri ilə müntəzəm şəkildə məşğul olan Mehdi Hüseyn hər bir bədii əsərə müasirlik baxımından qiymət vermiş, bu işdə böyük nailiyyətlər əldə etmişdir. O, Hüseyn Cavidin “Səyavuş” əsərini təhlil edərkən şairin “əfsanənin müasirləri üçün xeyirli etmək, tarix vasitəsilə bu günə xidmət” göstərmək meylini müsbət bir əlamət kimi qiymətləndirmişdir. Sənətkar yazıçının mənəvi inkişafını, aldanışdan həqiqətə, sadəlövhlükdən aydın

idraka doğru tədricən yüksəliş çətinliklərini addım-addım izləyərək, belə bir dürüst qənaətə gəlir ki, "bədii üslub yeniliyi yalnız dərin inqilabi məzmun sayəsində yarana bilər".

**II aparıcı:** Mehdi Hüseynin ikinci tarixi əsəri "Nizami" adlanır. Nizami mövzusunda bədii əsər yazmaq hər bir yazıçıdan xüsusi istedad, cəsarət, böyük məsuliyyət tələb edir. Çünki Nizami Gəncəvi dünya ədəbiyyatı tarixində nadir simalardan biridir. Nizaminin adı, şəxsiyyəti, dərin bədii və fəlsəfi təfəkkürün təzahürü olan poemaları əsrlər boyu sənətsevərlərin, yazıçı və mütəfəkkirlərin diqqətini cəlb etmiş, kamal, idrak, mərifət sahiblərinin hörmət və rəğbətini qazanmış, haqqında saysız-hesabsız elmi, bədii əsərlər yazılmışdır. Əsərdə təsvir olunan hadisələr Nizaminin həyatına və yaşadığı dövrə aid faktlara, tarixi həqiqətə əsaslansa da, burada yazıçının poetik axtarışları, yaradıcı təxəyyülü daha üstün yer tutur.

**I aparıcı:** Müəllif əsərdə Nizami Gəncəvinin mənəvi dünyasını, ictimai fəaliyyətini və fərdi həyatını daha çox üç problem ətrafında ümumiləşdirməyə çalışmışdır. Mehdi Hüseynin yaratdığı Nizami dərin elmi, fəlsəfi, poetik dühası ilə dövrünün bütün sənətkarlarından yüksəkdə dayanan böyük şair, həmişə doğma yurdunun və xalqının taleyini düşünən, onun hüquq və şərəfini ləyaqətlə müdafiə edən mütəfəkkir bir şəxsiyyət, həm də bütün varlığı ilə sevən və bu məhəbbəti öz həyatının məzmunu, ilhamının tükənməz mənbəyi hesab edən bir aşiqdir. "Nizami" dramında əsas qayə, aparıcı ideya vətənpərvərlikdir. Yazıçı Nizami obrazının bir şair, vətəndaş aşiq kimi xarakterini, ictimai arzu və ənənələrini məhz bu ideyanın işığında açır, tamamlayır.

**II aparıcı:** Mehdi Hüseynin yaratdığı Nizami el-obasına, doğma torpağına ürəkdən vurğun, onun hər qarışını dərin məhəbbətlə sevən bir vətənpərvərdir. O, vətəni ilə fəxr edir Gəncə, Bərdə kimi füsunkar bir yurdun oğlu, övladı olduğu üçün qürur, iftixar hissi keçirdir, onun al-əlvan hüsnünü, gözəl, könül oxşayan təbiətini tərənnüm etməyi özü üçün böyük xoşbəxtlik sayır.

**Oxucu:**

Bərdə nə gözəldir, oh, nə göyçəkdir!
Yazı da, qışı da güldür, çiçəkdir!
Yayında dağlara lalələr səpər;
Qışını baharın nəsimi öpər...
Oxuyur kəkliyi, ötür turacı,
Qırqovul yuvası hər sərv ağacı...
Səssizlik içində dincəlir gülşən,
Torpağı azaddır qayğı, kədərdən.
Quşlar yığılırkən bu gözəl yurda,
Quş südü istəsən, taparsan burda...
Belə şux, sevimli gülşən harda var?
Harda var xəzinə saçan bu diyar?!

**I aparıcı:** İndi isə gəlin Mehdi Hüseynin "Nizami" pyesi əsasında XI sinif şagirdlərinin hazırladıqları səhnəciyə tamaşa edək:

*(İştirakçıların alqış sədaları altında səhnəyə Qiyami və Nizami rollarını ifa edən iki nəfər iştirakçı daxil olur).*

**I Oxucu (Nizami):** Aha, nə yaman coşmusan! Deyəsən təzə yazdığın qəzəli oxumaq istəyirsən.

**II Oxucu (Qiyami):** Qəzəl nədir? Qəsidə nədir? Ölmüşəm üstümdə quran oxuyan yoxdur.

**I Oxucu (Nizami):** Qardaşım, sən həyatdan doymuş adamlara bənzəyirsən.

**II Oxucu (Qiyami):** Yanılırsan, əzizim. Bu geniş bir süfrədir, mən də bu süfrədən gözü doymamış bir müsafir.

**I Oxucu (Nizami):** Bax mən, yeni əsərimi yazıb qurtarmışam. Bizim sevincimizdən ümidsizlər, gözüyaşlılar, dərdi-səri olan bütün insanlar ilham alıb sevinəcəklər. Səninlə qabaq-qabağa oturub yemək yeyəcəyəm. Durma dostumuz Yusifin ovladığı ceyranı apar, təndirdə qızartsınlar.

**II Oxucu (Qiyami):** Təndir? Təndir nədir? Saray şairi Munis bizimlə deyişərək hamımızı məğlub etdi. Mən hələ onun qədər

sürətlə deyişən şairə rast gəlməmişəm. Səninlə üz-üzə gəlməyə çox can atırdı. Sən də məğlub olsan...
**I Oxucu (Nizami):** Onunla qabaqlaşarıq. Görək taleyimiz bizə nə göstərir. Məhsəti xanıma da xəbər yolla. Qoy gəlsin Gəncənin ən böyük şeir ustadı Məhsəti xanım sənətin qüdrətini Munisə göstərər.
*(Bir neçə adam Munislə bərabər gəlir. Hamı bağçada salınmış xalı üstündə oturur).*
**III Oxucu(Munis):** Qiyami hara gedirəmsə, sənə rast gəlirəm, mən səninlə deyişdim ki...
**II Oxucu(Qiyami):**Doğrudur. İndi mən o gördüyün Qiyami deyiləm. Aha, Məhsəti xanım da gəldi. Bugünkü şeir məclisinə o, zinət verəcəkdir. Bir baxın, gəldiyi yerə günəş kimi şəfəq saçır.
*(Nizami də məclisə qoşulduqdan sonra Munislə deyişmə başlayır. Məhsəti xanım münsif olaraq onlara deyişmək üçün sual verir).*

**IV Oxucu(Məhsəti):** Hər kəs öz gücüylə girsin meydana
Söyləsin fikrini mərdi-mərdanə,
Əzəldən nə imiş qoca kainat,
Nədən yaranmışdır anamız həyat?

**III Oxucu(Munis):** Xilqət səhifəsi açılmamışdan,
Bircə qüvvət varmış: o da yaradan!

**I Oxucu(Nizami):** Bizim dünyamızda ağıllı bir kəs,
Görünməyən şeyə inana bilməz!

**III Oxucu(Munis):** Bu dərya təbimlə bəhsə girmə sən;
Xəzinə ruhunu gəl dindirmə sən!
Saqiyə get söylə buraxsın qəmi;
Doldursun şərabla qoy piyaləni!

**I Oxucu(Nizami):** Gəl at bir tərəfə boş xəyalları,
Aç, hünərin varsa, bu sualları;
Sən ovçu deyilsən, get dolan bir az,
Bu körpə aslandan sənə ov olmaz!

**III Oxucu(Munis):** Əzəldən yox imiş qoca kainat;
Bir heçdən yaranmış anamız həyat.

**I Oxucu(Nizami):** O böyük yaradan nədirsə gerçək,
Hər nə yaratmışsa, alçaq ya yüksək,
İnsan zəkasının ilk yaratmış o,
Onu öz nurilə aydınlatmış o...

**IV Oxucu(Məhsəti):** Bu suala heç biriniz doğru cavab vermədiniz. Munis kainatın yaranışını düzgün təsəvvür etmir. Lakin Nizami çox qiymətli bir fikir söylədi. O, insan zəkasının qüvvətini tərif edərkən, əlbəttə, yanılmadı.

*(Məhsəti ikinci sualla onlara müraciət edir).*

**IV Oxucu(Məhsəti):** Şairlik etdikcə mən ucalmışam
Firuzə göyləri seyrə dalmışam.
Bir də sualım var: söyləyin mənə
İlk əzəl yar olan nədir insana?

**III Oxucu(Munis):** Mənə sualınız tanışdır, tanış
İnsan xəyanətlə ekiz yaranmış
İnsandır ilk dəfə fitnə düzəldən;
Küdurət insana yardır əzəldən.
O, kinlə gələrək böyük varlığa,
Sirdaş kəsilmişdir hiyləgarlığa.
İnsanın varlığı kindir, hiylədir.

**I Oxucu(Nizami):** Yox, səhv edirsiniz, böyükdür ürək,

Bəzi sinələrə bir yükdür ürək.
Müqəddəs yaranmış dünyada insan,
Hər zaman insanla fəxr etmiş cahan.
Məndə hiss-hörmət vardır insana;
Əvvəldən məhəbbət yardır insana.
Sevgi bu dünyada ilk xilqət olmuş,
İnsanın ilk sözü məhəbbət olmuş.

**IV Oxucu(Məhsəti):** İnsan qəlbində yalnız kin və fitnə axtaran şair tez məğlub olar, Munis! Nizami isə öz məhəbbəti ilə qalib gələcəkdir. Mən bu deyişmədə ona üstünlük verirəm.

*(Sonra səhnədə meşəlik təsvir edilir. Nizami dostları ilə bərabər ova çıxır. Eyni zamanda Şirvan şahı adamları ilə bərabər ov paltarında ova çıxır).*

**V Oxucu (Şah):** Vəzir ovçuları görürsənmi? Bizim dünəndən axtarıb tapmadığımız ceyranlar indi onlara rast gəlmişdir.
**VI Oxucu(Vəzir):** Şahım o ovçulara deyərik vurulmuş ceyranı bizə bağışlarlar.
**V Oxucu(Şah):** Bunun heç bir qiyməti olmaz, vəzir. Mən öz taleyimi sınadım qarşıma heç nə çıxmadı.
**VI Oxucu(Vəzir):** Xeyr, şahım bu tale deyil. Biz bu yerlərə yaxşı bələd olmadığımız üçün.
**V Oxucu(Şah):** Aha, qayıdırlar. Bu xoşbəxt ovçularla bir neçə kəlmə danışmaq heç də pis olmaz.
**V Oxucu (Şah):** Sən şair Nizamisən elə deyilmi?
**I Oxucu (Nizami):** Bəli. Ancaq mən hələ özümü şair adlandırmağa cəsarət etmirəm.
**V Oxucu(Şah):** Yox, belə təvazökar olma! Bu ad sənə layiqdir. Xaqani səni təriflədi. Mən sənə ürəkdən vuruldum.
**I Oxucu(Nizami):** Xaqanini mən hələ görməmişəm. Mən onu yalnız məktublarından tanıyıram. Böyük şair nədənsə son məktublarını mürəkkəblə yox, göz yaşları ilə yazır. Onun sözlərindən Azərbaycanın dərin kədəri oxunmaqdadır.

**V Oxucu(Şah):** Şair, arzum budur: bütün dərdini unut, sarayıma gəl! Məcnun eşqinə dair dürr kimi bir söz de!
**I Oxucu (Nizami):** Əfv edərsiniz, ey şah, Bərdəyə hazırlanan hücumdan xəbərdarsınızmı?
**V Oxucu(Şah):** Hücum edən kimdir?
**I Oxucu (Nizami):** Vəhşi xəzərlər.
**VI Oxucu(Şah):** Yox, bu mənim üçün təzə xəbərdir. Bir də, Bərdə Şirvan hökmdarının ixtiyrında deyildir.
**I Oxucu(Nizami):** Elədir, Odlar yurdu on yerə parçalanmışdır. Hər dərənin bir hökmdarı var! Nə üçün ey şah? Məgər bir insanın qəlbi belə xırda hissələrə bölünərkən, yaşaya bilərmi?
**V Oxucu(Şah):** Əvvəldən belə olmuşdur şair. Bunun günahı məndə deyil, tarixdədir.
**I Oxucu(Nizami):** Əsl qüvvət də, tarixin səhvini düzəldən hökmdardadır. Azərbaycanın belə bir hökmdara ehtiyacı var. Siz də çalışın bir ürək on yerə parçalanmasın. Bunu sabah bütün xalq sizdən tələb edəcəkdir.
**V Oxucu (Şah):** Səndən cavab gözləyirəm şair, sənin kimi mahir bir şeir ustadı sarayda, naz-nemət içində yaşamalıdır.
**I Oxucu(Nizami):** Məncə, şair hər şeydən əvvəl insanların qəlbində yaşarsa, daha gözəl olar, ey şah! Bir də mən bu yerlərdə ötən quşlar kimi azad nəfəs almaq istəyirəm. Mən bu yerləri sevirəm. Sevgi isə mənim ən böyük ilham mənbəyimdir.
*(Nizami dostları ilə bərabər şahın izni ilə gedir).*
**V Oxucu (Şah)**: Vəzir, Nizami saraya gəlib mənim qanadım altında böyüməlidir. O, Gəncədə nə qədər çox qalarsa, bizə bir o qədər də ziyan verə bilər. İndi biz buradan Gəncəyə gedirik. Deмək, qət olundu. Qoy Nizaminin şöhrəti mənim sarayımla bağlansın.
*İştirakçılar səhnəni tərk etdikdən sonra, səhnədə digər bir mənzərə canlanır. Digər obrazları ifa edən iştirakçılar səhnəyə daxil olurlar. Afaq bir neçə qızla, belində səhəng, əlində bardaq, bulaq başına gəlir. Afaq Nizaminin ovladığı ceyranı görüb təəccüblə baxır.*

**VII Oxucu(Afaq):** Bu ceyran kimindir? Oh... Yazığın ürəyindən dəyib... Qızlar bu heç yaxşı olmadı. Bizdən kimi isə ürəyindən oxlayacaqlar.
**VIII Oxucu (Dəstəgül):** Sən özündən qorx! Bərdənin birinci gözəli sənsən.
**Birinci qız:** Ovçular gəlir, qızlar tez olun səhənginizi doldurun.
**I Oxucu(Nizami):** Gözüm aydın gözümə surət-canan görünür, Bəxtimin güzgüsünə sünbülü reyhan görünür. Gözəl Bərdənin pərilərinə salam olsun. Dağları, dərələri gəzib yorğun düşmüş qərib ovçulara su verməzsinizmi?
**VII oxucu (Afaq):** Elimiz-obamız qonaqsevəndir. Qərib ovçulara onun gözləri üstə yeri var.
*(Nizami ilə Afaq bir-birinə bənd olurlar. Nizami Afaqın gözəlliyi qarşısında sarsılır).*
*( Sonra səhnədə Xəzərlərin Bərədəyə hücum səhnəsi canlanır. Cəbhədən müdhiş bağırtılar eşidilir, qılınc səsləri get-gedə yaxınlaşır. Səhnədə Bərdənin cəngavərləri Toğrul və Çingiz görünürlər).*
**IX Oxucu (Çingiz):** Toğrul, bizdən başqa şəhərdə bir başıpapaqlı qalmamışdır. Vəhşi xəzərlərin birini də sağ buraxmayacağıq. Haydı düşmən üzərinə.
*(Səhnədə Afaqla Dəstəgül görünürlər. Onlar həyəcanla döyüş gedən tərəfə boylanırlar).*
**VIII Oxucu (Dəsətəgül):** Bax, görürsənmi? Xəzərlər şəhərə doluşdu. Bərdənin qanlı günləri başlandı. Of... Adamın tükləri ürpəşir. Niyə insanlar vəhşi heyvan kimi bir-birini yeyir. Bu qırğınlar nə üçündür, Afaq?
**VII Oxucu (Afaq):** Bir qarış torpaq üçün. Tökülən qanlar, ölən insanlar, göz yaşları – hər şey bir qara torpaq üçündür. Aman ya rəbbi, o, qoşundurmu, yoxsa, ucsuz-bucaqsız bir insan dənizidirmi?
*(Xəzərlərdən və Bərdə cəngavərlərindən şəhid olan çox olur. Bu zaman həyətə doluşan xəzərlər müxtəlif tərəfə doluşurlar. Onlardan biri Afaqı görüb dayanır).*

**Xəzər:** Aha Bərdə gözəli, yanaqların yeni doğmuş ay, gözlərin ahu gözləridir. Qorxusundan yanağında göz yaşı parıldayan bu qız qılınc oynatmağı da bacarırmış. Sən qılınc zərbəsinə dözməyəcəksən. Gedək zəngin saraylara.
**VII Oxucu(Afaq):** Doğma gülşənini sevən bülbülün ən böyük düşməni qızıl qəfəsdir. Saraya məni yox, mənim vurduğum qılınc yaralarını hədiyyə apar. Al, bu da biri!
*( Xəzəri vurur. O, dizi üstə qapanır).* Ye bu torpaqdan doyunca.
**Xəzər:** Mən bu torpağı necə yeyim?
**VII Oxucu(Afaq):** Elə isə öləcəksən.
**Xəzər:** Sizlərdə adət belədirmi?
**VII Oxucu(Afaq):** Bəs bu qədər vuruşmaq, günahsız insan qanı tökmək, bu gözəl sarayları yandırıb külə döndərmək nə üçündür? Qoy səni göndərənlər bilsinlər ki, adətimiz belədir! Düşməni məğlub edəndə, biz ona doyunca torpaq yedirdirik. *(Vurub öldürür. Sonra bir dəstə Xəzər gələrək Afaqı əsir aparırıar).*
*(Gəncə yaxınlığında bir ovlaq, yaşıl bir təpə. Təpənin başında şah dayanıb uzaqlara baxır. Arxadan gələn vəzir ona yaxınlaşır).*
**VI Oxucu(Vəzir):** Şahım, Bərdədən alınan xəbər doğrudan da acıdır. Nizami düz deyirmiş, vəhşi xəzərlər şəhərə dolub daşı-daş üstündə qoymamışlar. O, böyük sarayların nə izi qalmışdır, nə də tozu.
**V Oxucu(Şah):** Doğrudanmı, bu heç yaxşı olmadı, vəzir, mən buna ürəkdən təəssüf edirəm. O yerlərə ova çıxarkən, insan dünyanın hər bir dərdini unudurdu. Təəssüf, çox təəssüf! *(Munis Gəncə valisi ilə gələrək şaha təzim edirlər).*
**III Oxucu(Munis):** Gəncə valisi haqlıdır, şahım. Mən həqiqət aşiqiyəm. Mənim vicdanım ləkə götürməz. Nizaminin işlətdiyi cinayəti mən sizdən gizlətmək istəmirəm.
**V Oxucu(Şah):** Cinayət? Kimi öldürmüşdür? Bu nə sözdür?
**III Oxucu(Munis):** Adam öldürsəydi, mənə bu qədər təsir etməzdi. O, Məhsəti xanımla birləşib, böyük hökmdarı xalq

içərisində rüsvay edir. Belində xəncər gəzdirən əxiləri başına toplayıb, xalqı üsyana çağırır. Mən Məhsətinin həcvlərini öz qulağımla eşitdim.
**V Oxucu(Şah):** Bəsdir. Bu sözlərin biri doğru olsa, and içirəm gözəgörünməz böyük Tanrıya, mən Nizamini də, Məhsətini də daşqalaq etdirəcəyəm.

*(Bir neçə Bərdəli şahın hüzuruna gəlir).*

**X Oxucu(Əbdək):** Şahım, məni buraya Bərdəlilər göndərib ki, sizdən kömək istəyim.
**V Oxucu(Şah):** Kömək istəyən adam əvvəlcədən xəbər verərdi.
**X Oxucu(Əbdək):** Biz dedik özümüz onlara üstün gələrik. Düşmənlərimiz xeyli qüvvətli imiş.
**V Oxucu(Şah):** Yaxşı, şəhər yanıb külə dönəndən sonra, mənim köməyimdən nə çıxar?
**X Oxucu(Əbdək):** Biz xəzərlərlə vuruşub əsirlərimizi xilas edə bilərik.
**V Oxucu(Şah):** Eləsə, çalışaram sizin ricanıza əməl olunsun.
**X Oxucu(Əbdək):** Mən rica etməyə yox, tələb etməyə gəlmişəm.
**V Oxucu (Şah):** Necə?
**X Oxucu (Əbdək):** Siz nahaq acıqlanırsınız şahım. Xatırınızdadırmı Bərdəlilər Şirvan Qalasını müdafiə edərkən, yüzlərcə qurbanlar vemişdilər. Bərdə Cəngavərləri ilə bərabər Şirvan qalasını düşmənlərdən bax, bu sinəmlə müdafiə etmişəm. Borclu-borcluya belə cavab verməyə haqlıdır. Mən bütün Bərdəlilərin adından hər kəsə bildirirəm. Qoy bütün dünya şahid olsun ki, daşürəkli, quşbeyinli hökmdarlar ana vətənin qəlbinə yara vurmaqdan həzz alırlar.

(*Şah qəzəblənərək Əbdəki edam etdirir. Sonra Nizami şahın hüzuruna gəlir).*

**I Oxucu(Nizami):** Ey hökmdar, gözəl Bərdəni yandırıb külə döndərdilər. Azərbaycanın dilbər guşələrindən biri də məhv olub getdi. Böyük bir ölkənin xəstə qəlbinə yenə sağalmaz bir yara vuruldu. Analar övladlarından, bacılar qardaşlarından ayrı

düşdü. Odur, baxın, Bərdənin yaralı igidləri sizdən kömək istəyir. Of, mənim elə bir qüvvətim olaydı ki, qılıncların xarabaya döndərdiyi vətəni qələm gücünə gülşənə çevirəydim. Hanı elə bir hökmdar ki, bu xarabaları görərkən, ürəyindən qopan ah səsi bütün dünyanı titrətsin?

**V Oxucu(Şah):** Şair, mən səni üsyan etməyə çağırmadım. Nəşəni korlayan şairə mənim ehtiyacım yoxdur. Sarayda beləlari onsuz da azlıq etmir. Xaqaninin şeirlərini yəqin ki, oxumuşsan. Onun göz yaşları artıq məni təngə gətirmişdir. O da üsyan etməkdən zövq alır.

**I Oxucu(Nizami):** Şairi Xaqani kimi qolu zəncirli bir qula çevirmək olar. Lakin, azad xəyallarını zəncirləməyə hökmdarların belə gücü çatmaz.

**V Oxucu(Şah):** Şair mən səni sarayıma dəvət edirəm.

**I Oxucu(Nizami):** Ey şah unutmayın ki, yurdumuzun böyük şairi Əbülülanı zindanda çürüdən saray oldu. Şairlər peyğəmbəri Xaqaninin də yolu orayadır.

**V Oxucu(Şah):** Onların hər ikisi üsyankardır. Yox, sənin də dalğın çöhrəni bürümüş kədər buludları görünür, heç zaman dağılmayacaqdır. Sənin səsindən şikayət yağır.

**I Oxucu(Nizami):** Ey hökmdar, mən sənin zülmündən şikayət edən məzlumların ah-naləsiyəm. Mən parçalanmış bir ölkənin şikəst ürəyindən qopub gələn bir fəryadam. Mən "Sirlər xəzinəsi"ndə olanların yüzdə birini demişəm. Mən bir güzgüyəm ki, sənin həqiqi simanı göstərmişəm. Əgər sifətin eybəcərdirsə, onun ləkəsini təmizlə. Bəs nə üçün güzgünü sındırırsan?

*(Nizami məğrur addımlarla gedir. Hamı onun ardınca baxır).*

**V Oxucu (Şah):** İndi mənim fərmanımı dinlə, Vali! Məhsəti bax, burada mənim ayağımın altında daş-qalaq edilsin. Bu Nizaminin sinəsinə dağ çəkər. O, mənim təklifimdən boyun qaçırdı. Mən özüm ondan intiqam alaram. Durma, get! Mən bu üsyankarlar yuvasına od vuracağam. Qoy Gəncədə şair səsi yox, bayquş naləsi ucalsın!

*( Səhnədə Məhsətini edam etmək üçün dar ağacı asılır. Cəllad rolunu və epizodlarda oynayan bir neçə nəfər səhnəyə daxil olur. Nizami Məhsətini bu vəziyyətdə görərək təəccüblənir).*

**I Oxucu(Nizami):** Mən gözlərimə inanmaq istəmirəm. Edam üçün gətirilən bu qadın, Gəncənin fəxri Məhsəti xanım deyilmi? Vali, sən əsrimizin qaranlığı içərsində parlayan bu dan ulduzunu söndürməkmi istəyirsən?

**Vali:** Yaxın gəl, O, ulduz deyildir. Sən Məhsətini yaxşı tanısaydın, onun şirin dilinə aldanıb özünü bədbəxt etməzdin. Şair unutma ki, hökmdarın qəzəbi də özü qədər böyükdür. Onun mərhəmətini yalnız bir yolla qaytara bilərsən. Məhsətiyə sən özün cəza ver.

**I Oxucu( Nizami):** Mən öz günahımı Məhsətinin qanı ilə yuyub təmizləyəcəyəm.İnsanların qabağı qılınc-qalxanla kəsildi. Onlar bu faciənin şahidi ola bilmədilər. Qoy bu faciəyə mavi göylər şahid olsun. Mən öz intiqamımı səndən alıram, Məhsəti xanım!

*(Nizami həyəcanla əyilib Məhsətinin əlindən öpür).*
*( Bir neçə gündən sonra Bərdə hökmdarı Nizamiyə bəxşiş olaraq Afaqı onun hüzuruna göndərir. Nizami əvvəlcə Afaqın sadəcə olaraq bir kəniz olduğunu zənn edib onu qəbul etmək istəmir. Lakin, sonradan aşiq olduğu Afaqı tanıyır. Və onunla ailə qurur).*

**VII Oxucu(Afaq):** Ayrılmaram ölməyincə səndən;
Qəm xəncəri qəlbə, qanə yetdi.
Eşqi necə gizlədim cahanda
Naləm o biri cahanə yetdi.

**I Oxucu(Nizami):** Düz deyirsən, Afaq. Dünyada eşqi gizlətməkdən çətin iş yoxdur.

**VII Oxucu(Afaq):** Mən kədərimin çoxluğundan oxuyuram. Səni gördüm hər şeyi unutdum.

**I Oxucu(Nizami):** Mən də eləyəm, Afaq. Sən bu balaca gülşənə böyük bir sevinc gətirdin. Bu sevinci yalnız mən yox, anam da, qardaşım da hiss edir.

*(Sonra başqa bir səhnə canlanır. Afaq beşiyə yanaşaraq oğlu Məhəmmədə lay-lay çalır).*

**VII Oxucu(Afaq):** Mən indi xoşbəxtəm. İndi mən ölümdən qorxmuram. Balaca Məhəmməd məndən ona yadigar qalacaq. O, Məhəmmədin üzünə baxdıqca məni xatırlayacaq.

*(Bir azdan Nizami səhnədə görünür).*

**VII Oxucu(Afaq):** Mən hər dəqiqə hiss edirəm ki, ömrümün sonu yaxınlaşır.

**I Oxucu(Nizami):** Yox-yox sən yaşayacaqsan. Mən qoca təbiəti köməyə çağırdım. Səni uca dağlarımızın başından yığdığım bu çiçəklərlə sağaldacağam. Ölüm bizim məhəbbətimizə təslim olacaq.

**VII Oxucu(Afaq):** Mən sağalacağam, mən yaşayacağam. Mən səninlə yaşayacağam.

**I Oxucu(Nizami):** Afaq, yuxusuz gecələrimin meyvəsi, könlümün, məhəbbətimin dastanı “Xosrov və Şirin” hazırdır, əzizim. Mən onu aparıb şahlara hədiyyə edəcəyəm. Kim bilir, bəlkə də Əbdək onların dustağıdır. Lazım gəlsə sənin xətrin üçün şaha yalvaracağam.

**VII Oxucu(Afaq):** Yalvarma, şahın qabağında əyilmək sənə yaraşmayır. Qoşqar dağı hansı fələkətin qarşısında əyildi ki, sən də şahların hüzurunda əyiləsən.

*(Birdən Afaqın halı dəyişir. O, Nizaminin qolundan tutaraq özünü saxlayır),*

**VII Oxucu(Afaq):** Beş günlük ömrümü də Məhsəti xanımın fələkəti əlimdən aldı. Mən ölürəm əzizim. Odur bax, yaralı ceyran. Məni yenə də axtarıb tapdı.

**I Oxucu(Nizami):** O sənin taleyin deyildir Afaq! O, yaralı vətənin timsalıdır əzizim. Vətənin yaraları isə əbədi deyildir. O yaralar sağalacaq. İstəkli qardaşın Əbdək də tapılacaq. Afaq biz hələ yaşayacağıq. İrəlidə xoş günlərimiz var. Biz əbədi səadət üçün yaranmışıq.

**VII Oxucu(Afaq):** Elədir əzizim. Əbədiyyət qədər ölməz olan məhəbbətimiz bizi yaşadacaqdır. Rica edirəm oxu!...

Gecə xəlvətcə bizə çeşmi xumar gəlmiş idi,
Üzü aydın da gözəl nazlı nigar gəlmiş idi.
Tər axıb gül yanağından, bulud örtmüşdü ayı,
Onu düşmənmi qovub, könlü qubar gəlmiş idi.
Mən ona göz yetirib, xəlvəti baxdım, baxdım...
Ovçunun ovlağına körpə şikar gəlmiş idi.
Uyuyub hər ikimiz rahat olub bir yatdıq,
Bəxtimin bağçasına güllü bahar gəlmiş idi.
Dedi: getmək dəmidir, söylə nə istərsən yar?
Tez oyandım, demə röyama o yar gəlmiş idi!...
Qəsəm etdi ki, Nizami... oyanıb gördüm o yox,
Demə röyada bizə çeşmi-xumar gəliş idi...

*(Şirvan sarayında böyük bir otaq. Şah vəziri ilə bərabər söhbət edirlər. Bu zaman xidmətkar Nizaminin gəldiyini xəbər verir).*

**V Oxucu(Şah):** Aha, cani öz ayağı ilə gəlib çıxdı. Bu daha gözəl. Çağırın onu.Yadındadırmı şair, saraya gəlmək istəmirdin!

**I Oxucu (Nizami):** Yadımdadır. Mən indi də o saraya gəlmək fikrində deyiləm.

**V Oxucu (Şah):** "Xosrov və Şirin"i nə üçün yazdın?

**I Oxucu (Nizami):** Sevdiyim üçün.

**V Oxucu (Şah):** Çox gözəl! Mən bu dastanı nə ilə mükafatlandıra bilərəm?

**I Oxucu (Nizami):** Mən ürəyimdə məhəbbət adlanan qiymətsiz bir gövhər əzizləyirəm. Mənim nəzərimdə cəvahiratın daşdan fərqi yoxdur.

**V Oxucu(Şah):** Eləsə, bu uzun yolu gəlməkdə məqsədin nədir?

**I Oxucu (Nizami):** Hökmdar, Məhsəti Gəncəvi sizin fərmanınızla öz doğma şəhərindən sürgün edildi. Bu hadisə tarix üçün böyük bir ləkədir.

**V Oxucu(Şah):** Mənim nəzərimdə o artıq ölmüşdür.

**I Oxucu (Nizami):** Xeyr, hökmdar! O, yalnız bundan sonra yaşayacaqdır.

**V Oxucu(Şah):** Demək səni Gəncədən buraya gətirən budur eləmi?

**I Oxucu (Nizami):** Mən indi bu möhtəşəm sarayı yaradan Əbdəki görmək istəyirəm.
**V Oxucu(Şah):** Aydın oldu. Memarlıq edən o rəzil mənə qarşı edilən sui-qəsdin iştirakçısıdr. O, sabah gün çıxmamış dar ağacından asılacaq. Vəzir o cani edam ediləndə, şəhərdə tonqallar qalansın. Qoy bütün aləm tamaşaya gəlsin.
**I Oxucu(Nizami):** Danış-danış, vətən mülkü xarabaya dönəndə, ötmək növbəsi bayquşlarındır.
**III oxucu(Munis):** Gördünüzmü şahım. Mən həqiqət aşiqiyəm, mənim vicdanım götürməz. Bu da "Xosrov və Şirin" dastanı...
**V Oxucu(Şah):** Deyirlər bu əsər dünyanı lərzəyə gətirmişdir. Azərbaycan dilində yazılmışdır. Çox qəribədir. Şair unutma ki, biz yüksək nəsildənik. Al mən bu dildə şeir oxumağa tənəzzül etmirəm.
**I Oxucu(Nizami):** Mən dastanı bu sarayı yaradan Əbdəkin ana dilində yazmışam.
**V Oxucu(Şah):** Bütün hamı bilsin ki, Azərbaycan da yoxdur, onun dili də.
**I Oxucu(Nizami):** Tarixi vərəqlə! Çoxları əlifba dərsini qədim Midiyalılardan almışdır.
**V Oxucu(Şah):** Bu, Nizaminin tarixidir...
**I Oxucu(Nizami):** Onu tərsinə yazanlara həqiqəti göstərmək üçün böyük bir şərəfdir. Bir zaman ki, Məhsətini, Əbdəki yetirən xalqın qəzəbi alov kimi göylərə ucalar və bu müdhiş alov hökmdarların əlilə yaranmış qaranlıq zindanları yandırıb külə döndərər.
**V Oxucu (Şah)**: Bəsdir, buyurub gedə bilərsən!

*Bu halda vəziri gətirirlər.*

**VI Oxucu (Vəzir):** Ey hökmdar, ey əli qanlı zülmkar, mən də Nizamini yaradan böyük xalqın oğluyam. Gəl, Nizami, bizi yetirən ananın, ana torpağın vüsalına gedək!
**V Oxucu (Şah):** Nankor, vəzir! Sənə bi müəzzəm sarayın göz qamaşdıran şöləsi yox, soyuq zindanların qatı qaranlığı yaraşır.

**VI Oxucu(Vəzir)**: Firdovsi Tus şəhəri üzərində parıldayan bir ay idisə, Nizami Gəncədən doğan bir günəşdir!
**V Oxucu (Şah):** Aparın, Firdovsi Tus Şəhəri üzərində parıldayan bir aydırsa, Nizami Gəncədən doğan bir günəşdir? Əmr edirəm, dastan yandırılsın.
**III Oxucu (Munis):** Yandırın!
*Vəziri aparırlar. O, məğrur addımlarla gedir. Munis "Xosrov və Şirin"i buxarıya atıb yandırır.*
**V Oxucu (Şah)** (alovdan dəhşətə gələrək). Söndürün, söndürün! Mən bu alovdan qorxuram!
**I Oxucu(Nizami):** Yandırın! Yandırın! Bu gündən sonra yalnız insanlar deyil, dağlar, dərələr də səs-səsə verib deyəcəkdir: Gəncə haradadır, Nizami kimdir?!...
*(Bununla da səhnəcik yekunlaşır. Sonda bütün iştirakçılar yenidən səhnəyə qayıdaraq tamaşaçılar tərəfindən alqışlanır).*
**I aparıcı:** Döyüşkən, mübariz bir sənətkar olan Mehdi Hüseyn ilk növbədə öz dövrünün övladı, həqiqi vətəndaşı olmuşdur. O, nədən yazırsa yazsın həmişə, hər yerdə öz əqidəsinə, arxalanraq yazıb yaratmışdır. Bütün ömrü boyu ədəbiyyatımızın, mədəniyyətimizin keşiyində dayanan, onun inkişafı, tərəqqisi uğrunda dönmədən, ardıcıl mübarizə aparan Mehdi Hüseyn ədəbi irsi yaşayır və gələcəkdə də yaşayacaqdır.
**II aparıcı:** Mehdi Hüseynin adını əbədiləşdirmək üçün Tofiq Bayram "Mehdi Hüseyn küçəsi" adlı şeir də yazmışdır. Həmin şeiri sizlərin nəzərinə çatdırırq:

Bir küçə var,
Dünyanı gətirir evimizə.
Özü görünməsə də,
Ərzi göstərir bizə.
Ekrandan, həm efirdən
Hər gün eşidirəm mən
Bu küçənin adını.
Nə yaxşı ki, bu yerə
Verdik sənin adını!

Mehdi Hüseyn küçəsi!
Ən tanınmış bir ünvan,
Mehdi Hüseyn küçəsi!
Məktublar umman-umman.
Hər zərfin üzərində
Adın yazılır sənin,
Sənətini, özünü
Sevənin, sevməyənin
Gəlir qulaqlarına
Hər gün diktorun səsi.
Ünvanımız belədir:
Mehdi Hüseyn küçəsi...
Bu küçədən görünür
Azərbaycanım mənə,
Burdan nəğmələr deyir
Öz sehrkar səsiylə
Gah Zeynəb xanım mənə,
Gah Şövkət xanım mənə
Bu küçədən görünür
Köksü nemətlə dolu
Milim, Muğanım mənə.
Ucalsaydı heykəlin,
Tanınmazdın bu qədər.
Yazılsaydı adına
Xatirələr, nəğmələr,
Tanınmazdın bu qədər
Mehdi Hüseyn küçəsi!

**II aparıcı:** Bəli, müasir Azərbaycan ədəbiyyatının beşiyi başında duranlardan, onun yetişməsində, formalaşmasında, yaradıcılıq prinsiplərinin işlənib hazırlanmasında, ideya saflığı və bədii kamillik uğrunda mübarizələrində, bugünkü yüksək zirvələrə çatmasında böyük rol oynamış görkəmli yazıçı, nəzəriyyəçi və tənqidçilərdən biri Mehdi Hüseyn olmuşdur. İlk

addımlarından son nəfəsinə qədər tam qırx il ərzində o özünü vuruş cəbhəsinin ön xəttində duran döyüşçü kimi aparmışdır.

**I aparıcı:** Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişafında, yeni mövzularla zənginləşməsində, eləcə də ədəbiyyatşünaslığın araşdırılmasında, ədəbi tənqidin yeni zirvələr fəth etməsində Xalq yazıçısı Mehdi Hüseynin özünəməxsus yeri vardır. 56 illik ömrünün 40 ilini ədəbiyyata həsr etmiş Mehdi Hüseyn orijinal yaradıcılıq xüsusiyyətlərinə malik istedadlı yazıçı, dramaturq və prinsipial, obyektiv tənqidçi idi. Müxtəlif janrlarda yazıb yaratmış bu unudulmaz sənətkar nəsr və dram əsərlərində yaşadığı dövrün xarakterik cəhətlərini qabartmağa çalışmış, quruluşun tələbi baxımından yeni obrazlar yaratmış, tarixi mövzulara müraciət etmiş, ədəbi-tənqidi məqalələrində isə ədəbiyyatın mühüm problemləri öz əksini tapmışdır. Mehdi Hüseyn nədən yazırdısa, çalışırdı ki, qələmə aldığı mövzu və problemlər xəlqilik mövqeyindən işıqlandırılsın, o cümlədən oxucunun vətənpərvərlik duyğularına, yaratmaq eşqinə təsir etsin. Mehdi Hüseyn də müəyyən həqiqətləri söyləmək üçün tarixi mövzulara müraciət edərək ürəyindən keçənləri bu yolla oxuculara çatdırmağa can atmışdır.

**II aparıcı:** 40 il ədəbi fəaliyyət göstərərək ədəbiyyatımıza sədaqətlə xidmət etmiş Mehdi Hüseyn əsl sənətkar ömrü yaşadı. Öyrənə-öyrənə, işləyə-işləyə, yüksələ-yüksələ. Mehdi Hüseyn ruhən güclü, mənən təmiz insan, millətini sevən ədib olduğundan yazdığı bütün əsərlərində mənəviyyatın qələbəsinə üstünlük vermişdir. O, qəhrəmanlarını rəğbət və məhəbbətlə, inanaraq təqdim etmişdir. Əslində, Mehdi Hüseyn azadlığı, azad sözü sevirdi. Bəlkə elə buna görə Nəriman Nərimanovdan bəhs edəcək əsərinin də adını "Azadlıq" qoymuşdu. Mehdi Hüseynin ədəbi irsi hər zaman yaşayacaq, oxucuları tərəfindən seviləcəkdir! Bununla da Mehdi Hüseynin 110 illik yubileyi münasibətilə hazırlanmış *"Ədəbi tənqidimizin cəngavəri"* adlı ədəbi-bədii gecəyə yekun vurulur.

## Ədəbiyyat siyahısı

Seçilmiş əsərləri : 3 cilddə. - Bakı : Avrasiya Press, 2005. - 312 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

**C. 1 :** hekayələr, roman. – 312 s.

**C. 2 :** Abşeron : roman. - 313 s.

**C. 3 :** pyeslər. – 312 s.

Abşeron. - Bakı : Çaşıoğlu, 2009. - 264 s. : portr. - (Azərbaycan Ədəbiyyatı).

### *Elektron resurslar*

Abşeron [Elektron resurs] : roman. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : birrəngli ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

Yeraltı çaylar dənizə axır [səs yazısı] / M. Hüseyn. - Bakı : "Avrasiya" Fondunun maliyyə dəstəyi ilə Azərbaycan Gözdən Əlillər Cəmiyətinin Bakı Tədris Müəssisəsinin Səsyazma studiyası, 2004. - 6 ak. - (Danışan kitabxana silsiləsindən).

### *Kitablarda*

Cavanşir // Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. - Bakı : Şərq-Qərb, 2007. - C. 2. - S. 175-225.

Hophop : hekayə // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2005. - C.3. - S. 152-168.

Kin : povest // Azərbaycan nəsri antologiyası. 5 cilddə. - Bakı : Şərq-Qərb, 2006. - C. 3. - S. 217-281.

*Haqqında*

**Əhmədov B.** Mehdi Hüseyn // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. - Bakı : Apostrof, 2010. - **C. 2**. - S. 297-303.

**Əlioğlu M.** Nəsrimizdə qadın azadlığı problemi : 30-cu illər // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1. - S. 367-380.

Mehdi Hüseyn // Müasir Azərbaycan ədəbiyyatı. – Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. – S. 384-412.

**Muğanna İ.** Mehdi Hüseyn : xatirə kitabından // Seçilmiş əsərləri. 6 cilddə. - Bakı : Avrasiya Press, 2009. – C. 2. - S. 407-413.

**Dövri mətbuatda**

**Cəfərov N.** Mehdi Hüseynin tənqidçi üslubunda tənqidin tənqidi // Ədəbiyyat qəzeti. - 2016. - 8 oktyabr. - **№ 37**. - S. 14-15.

**Əliyeva İ.** Zəngin erudisiyalı yazıçı : [Mehdi Hüseyn haqqında] // Ədəbiyyat qəzeti. - 2018. - 1 sentyabr. - № 32. - S. 18.

**Xəlilzadə F.** Azadlığı və azad sözü sevən Mehdi Hüseyn // Kaspi. - 2016. - 27 oktyabr. - № 173. - S. 14.

# Mehdi Hüseyn – ədəbi döyüşlər cəngavəri
(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 13
Çapa imzalanmışdır: 21.02.2019
Tirajı:100
Pulsuz